www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 7 avqust 2024-cü il Çərşənbə № 138 (8511) Qiyməti 60 qəpik

**Xəbər**

## Rayonlarda günü iki min manata hotel qiymətləri

yazısı səh.11-də

**Gündəm**

### Rus sərhədçiləri Kərki istiqamətini tərk etdi - yeni panika




Ermənilər kəndin Azərbaycana təhvil veriləcəyindən qorxuya düşüblər - analitiklərin rəyi

yazısı səh.8-də

# "Zəngəzur onların nəzarətinə keçir" iddiası

Azərbaycan dəhlizə nəzarətin hər hansı bir beynəlxalq quruma verilməsi ilə yalnız o halda razılaşa bilər ki...

yazısı səh.5-də



## İran nüvə dövlətidir, yoxsa "bomba rabatay..."

Tehranın atom silahı əldə etməsi iddiası blefdir və "strateji çəkindirmə" məqsədi daşıyır

yazısı səh.4-də

### "Putin ittifaqı"na yeni təhlükə

yazısı səh.9-da

### ABŞ və Avropa Birliyi rəsmisinə etirazlar

yazısı səh.6-da

### 125 yerə 950 iddiaçı - radikalların boykotu alınmadı

yazısı səh.7-də

### Varlıların Bakıda iki özəl məktəbi bağlanıb - təhsildə geriləmə...

yazısı səh.10-da

### Hökumətin onlayn iş rejimi qərarı - media nə edəcək?

yazısı səh.11-də

### Bir tükdən daha kiçik detal dünyanı bir-birinə vurur

yazısı səh.13-də

### QMİ səlahiyyətlərini niyə və necə itirdi?

yazısı səh.14-də

### Payızda kirayə evlər bahalaşacaq-səbəblər

yazısı səh.14-də

### İki deputatdan seçkidə imtina səbəbinə izahat

yazısı səh.7-də

### Həbsdə olan tanınmış MMA döyüşçüsü azadlığa çıxıb

yazısı səh.3-də



### Talıbovlar Londondakı şirkətlərini bağlayır

yazısı səh.3-də



### Soyqunu Tehrandan Bakıya gətirən iki səbəb

yazısı səh.4-də




### "Mirror" nəşrindən Azərbaycana hədyanlar

yazısı səh.6-da

yazısı səh. 8 və 9-da



# İlham Əliyevin Astanaya səfəri gözlənilir

**Avqustun 9-da Astanada Mərkəzi Asiya ölkələrinin dövlət başçılarının VI Məşvərət Görüşü keçiriləcək.**

Modern.az xəbər verir ki, iclasda Mərkəzi Asiya ölkələrinin və digər dövlətlərin liderləri iştirak edəcək.

"Kazinform" agentliyinin məlumatına görə, Azərbaycan Prezidenti İlham Əliyev də Qazaxıstana səfər edəcək. Agentlik qeyd edib ki, məlumatı Azərbaycan Respublikasının Qazaxıstan Respublikasındakı səfirliyi təsdiqləyib. İlham Əliyev avqustun 9-da Astanada keçiriləcək Mərkəzi Asiya dövlət başçılarının VI Məşvərət Görüşündə iştirak etməyi planlaşdırır.

Eyni gündə Yaponiyanın baş naziri Fumio Kişidanın da Qazaxıstanın paytaxtına səfər edəcəyi bildirilir.




# YAP-ın bütün deputatlığa namizədləri qeydə alındı

**Milli Məclisə 2024-cü il sentyabrın 1-nə təyin edilmiş növbədənkənar seçkilərlə əlaqədar Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən deputatlığa namizədliyi irəli sürülmüş şəxslər dairə seçki komissiyaları tərəfindən qeydə alınıb.**

Bu barədə YAP-dan məlumat verilib.

Bildirilib ki, partiyanın 125 seçki dairəsi üzrə təqdim etdiyi bütün namizədlərə artıq qeydiyyat vəsiqəsi verilib.

Xatırladaq ki, hakim Yeni Azərbaycan Partiyasının (YAP) sentyabrın 1-də keçiriləcək növbədənkənar parlament seçkilərində iştirak edəcək namizədlərinin siyahısı iyul ayının 17-də ictimaiyyətə açıqlanıb.

Qeyd edək ki, Prezident İlham Əliyev iyunun 28-də altıncı çağırış Milli Məclisin buraxılması və Milli Məclisə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamla altıncı çağırış Milli Məclis buraxılıb və sentyabrın 1-nə növbədənkənar seçkilər təyin edilib.




# "Gilavar"da dava - 5 nəfər saxlanılıb

**Avqustun 4-nə keçən gecə Bakı şəhər Nərimanov rayonu Ə.Dəmirçizadə küçəsində yerləşən "Gilavar" restoranında dava olub.**

"Qafqazinfo" xəbər verir ki, restoranda istirahət edən 5 nəfər sərxoş vəziyyətdə uca səslə danışmağa, bir-birilərinə qarşı təhqiramiz ifadələr işlətməyə başlayıblar.

Restoran əməkdaşları tərəfindən polisə müraciət edildikdən sonra hadisə yerinə 18-ci Polis Bölməsinin əməkdaşları gəlib. Polisin qanuni tələbinə qarşı çıxan şəxslərdən biri aqressiv davranışlarını daha sonra da davam etdirib. Bundan sonra həmin şəxslərin hamısı saxlanılaraq polis bölməsinə aparılıb.

Onlardan ikisi - 1982-ci il təvəllüdlü Kamran Babayev və Elşən Həsənov barəsində İnzibati Xətalar Məcəlləsinin 510 və 535-ci maddələri əsasında protokol tərtib edilib. Daha sonra onlar məhkəməyə göndərilib. Digər 3 nəfər isə izahatları alınaraq sərbəst buraxılıb.

Nərimanov Rayon Məhkəməsinin qərarı ilə Elşənə 20 sutka inzibati həbs cəzası verilib. Kamran isə 50 manat cərimə edilərək sərbəst buraxılıb.

# "Yeni Müsavat" oxuculardan üzr istədi




**"Yeni Müsavat"ın N:137, (8510) sayında ciddi yanlışlığa yol verilib. Belə ki, qəzetin həmin sayı əvəzinə N:136 (8509) tarixli şənbə sayı yenidən dərc edilərək köşklərə paylanıb.**

"Yeni Müsavat" Media Qrupunun rəhbərliyi təcili toplantı keçirərək bu kobud səhvdə məsuliyyəti olanları araşdırıb. Bəlli olub ki, ənənəvi olaraq PDF variantını mətbəəyə göndərən dizayner məzuniyyətdə olduğu üçün onu köməkçisi əvəz edib və məhz onun səhlənkarlığı səbəbindən qəzetin köhnə PDF variantı yenidən nəşrə göndərilib. Nəşriyyatda "Yeni Müsavat"ın dərcinə nəzarət edən əməkdaş isə yanlışlığın yalnız tarixlə bağlı olduğunu zənn edərək, tarixi düzəltməklə işini bitmiş hesab edib. Nəticədə ortaya belə üzücü mənzərə çıxıb.

"Yeni Müsavat" Media Qrupunun rəhbərliyi bildirir ki, ciddi səhvə yol vermiş iki əməkdaşa şiddətli töhmət elan edib. Qərara alınıb ki, N:137, (8510) sayı yenidən dərc edilsin.

"Yeni Müsavat" Media Qrupu bu ciddi yanlışlığa görə oxuculardan üzr istəyir. Bildiririk ki, bu gün (7 avqust) köşklərə yaxınlaşan hər bir oxucuya qəzetin həmin sayı pulsuz təqdim ediləcək.

**"Yeni Müsavat" Media Qrupu**




# Taksi sürücülərinin imtahan vaxtı açıqlandı

**Dövlət İmtahan Mərkəzi 1 iyul 2024-cü il tarixindən sonra xüsusi hazırlıq keçmiş taksi minik avtomobili sürücüləri üçün ilk imtahanı avqustun 25-də keçirəcək.**

Mərkəzdən verilən məlumata görə, imtahanda iştirak etmək üçün Dövlət İmtahan Mərkəzinə müvafiq qurumlar tərəfindən 1800 nəfərə yaxın şəxsin məlumatları təqdim olunub.

İmtahanda iştirak etmək istəyən həmin sürücülər ilk növbədə DİM-in internet saytından 20 avqustadək qeydiyyatdan keçməlidir.

İmtahanda iştirak ödənişlidir. Namizədlər "Şəxsi kabinet" yaratdıqdan sonra həmin kabinetin pul hesabına imtahanda iştirak etmək üçün tələb olunan 35 AZN məbləğində vəsaiti əlavə etməlidirlər. Qeydiyyatdan keçmiş imtahanda iştirak etməyən namizədlərin ödədiyi məbləğ geri qaytarılmır.

İmtahanın davametmə müddəti 1 saatdır.

# Peşə məktəblərində də təhsil haqqı artırılıb?



**Peşə təhsilində ödəniş haqlarında bir dəyişiklik yoxdur. Lakin növbəti illərdə peşə təhsilində qiymətlərin uyğunlaşdırılmasına ehtiyac var.**

Bunu Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktoru Ceyhun Kərəmov deyib. O qeyd edib ki, son iki ildə peşə təhsilində adambaşına maliyyələşmə metodundan istifadə edilir. "Adambaşına maliyyələşməyə keçid bizə imkan verir ki, peşə təhsili müəssisələrində tələbə hazırlığına lazım olan xərclər daha real qiymətləndirilsin. Gəlin razılaşaq ki, Azərbaycanda ödənişli əsaslarla peşə təhsilində tələb olunan ödəniş haqqı təhsil üçün çox aşağıdır. Yəni 650 manata keyfiyyətli qaynaqçı hazırlamaq mümkün deyil. Amma hazırda qaynaqçı ixtisası üzrə təhsil haqqı 650 manatdır. Bir çox hallarda müəyyən edilən ödənişlər bizə müəllimlərin əməkhaqlarını ödəməyə imkan vermir. Bu, reallıqdır və bir çox müəssisəmizdə bu kimi hallar mövcuddur.

Adambaşı maliyyələşməyə keçdiyimiz müəssisələrdə bir sıra ixtisaslarda artıq qiymətlər fərqlənir. Məsələn, qaynaqçı, kompüterlərin təmiri üzrə mütəxəssis, kibertəhlükəsizlik üzrə mütəxəssis ixtisaslarında qiymətlər fərqlidir. Biz bilirik ki, kargüzarlıq üzrə mütəxəssis hazırlanması ilə qaynaqçı hazırlanmasının qiymətləri eyni deyil. Çünki kargüzarlıqda istifadə etdiyimiz material, elektrik enerjisi sərfiyyatı çox aşağı olduğu halda, qaynaqçı ixtisasında bu daha çoxdur. Eynilə kibertəhlükəsizlik üzrə texnik hazırlayırıqsa, başa düşməliyik ki, bu sahədə keyfiyyətli tədris keçə bilən müəllimlərin əmək haqqı tələbi daha yüksəkdir. Bu baxımdan növbəti illərdə peşə təhsilində qiymətlərin uyğunlaşdırılmasına ehtiyac var", - deyə C.Kərəmov "Trend"ə açıqlamasında bildirib.

Xatırladaq ki, bəzi universitetlərdə illik təhsil haqqı artırılıb.



# İki ildən sonra qalıqları tapılan hərbçilərimiz donvurmadan ölüb

**Dövlət Təhlükəsizliyi Xidməti, Baş Prokurorluq və Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası birgə məlumat yayıb.**

**Məlumatda deyilir:**

"Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında təmsil olunan aidiyyəti dövlət qurumları tərəfindən aparılmış axtarış-araşdırma işləri nəticəsində 3 iyul 2024-cü ildə Kəlbəcər rayonu, İstisu qəsəbəsindəki Yüzbulaq yaylağının ərazisində Azərbaycan Ordusunun iki hərbçisinə aid olduğu ehtimal edilən meyit qalıqları aşkarlanaraq götürülüb.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi və Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Hərbi-tibb baş idarəsinin Genetik Araşdırmalar Mərkəzində həyata keçirilmiş ekspertizalar nəticəsində qalıqların 3 mart 2022-ci ildə Laçın rayonunda yüksək dağlıq və çətin relyefli ərazidə hava şəraitinin qəfil dəyişməsi və çovğun səbəbindən istiqaməti itirərək itkin düşmüş Azərbaycan Ordusunun əsgərləri - 23.05.2003-cü il təvəllüdlü Məmmədov Fərid Əjdər oğlu və 09.02.2003-cü il təvəllüdlü Abdullayev Firdovsi Mais oğluna aid olduğu müəyyən edilib.

Həyata keçirilmiş kompleks istintaq tədbirləri, məhkəmə-tibb və kriminalistik tədqiqatlarla müəyyən edilib ki, həmin əsgərlər 3 mart 2022-ci ildə Laçın rayonunda yüksək dağlıq və çətin relyefli ərazidə hava şəraitinin qəfil dəyişməsi və çovğun olmasından istiqaməti itirərək itkin düşüblər, uzun müddət soyuq temperaturda qalmaqla donvurma səbəbindən ölüblər.

Əsgərlərin nəşlərinin tapılması 5 avqust 2024-cü ildə Dövlət Komissiyasında keçirilmiş görüşdə itkin hərbçilərin ailələrinə elan edilib.

Hazırda aidiyyəti dövlət qurumları ilə birlikdə əsgər Fərid Məmmədov və əsgər Firdovsi Abdullayevin dəfni ilə bağlı zəruri tədbirlər həyata keçirilir. Dəfn mərasimlərinin vaxtı və yeri barədə ictimaiyyətə əlavə məlumat veriləcək".

YENİ MÜSAVAT
N 138 (8511) 7 avqust 2024

# Talıbovlar Londondakı şirkətlərini bağlayır

## Hüquqşünas: “Başa düşürlər ki, gec-tez ingilis məhkəməsinin məmurları onların da qapısını döyəcək”

**Azərbaycanda həbsdə olan Beynəlxalq Bankın keçmiş sədri Cahangir Hacıyevin həyat yoldaşının Britaniyadakı əmlakı müsadirə olunub. Zamirə Hacıyevanın Britaniya Milli Cinayətkarlıqla Mübarizə Agentliyinin (NCA) 6 il çəkən təhqiqatından sonra bu müsadirəyə razılıq verdiyi bildirilir.**

Söhbət Londonun Naytsbirc məhəlləsində 14 milyon funt-sterlinq dəyərində evdən və Askotda qolf klubundan gedir. NCA-nın yaydığı məlumatda deyilir ki, agentlik bu aktivlərin irimiqyaslı saxtakarlıq və mənimsəmə, saxta mühasibatlıq və çirkli pulyuma vasitəsilə əldə olunduğuna inanır. NCA 2018-ci ildə Britaniyadakı bu iki mülklə əlaqədar izah edilməmiş sərvət orderi (UWOs), həmçinin əmlakın satılmasını, başqasına verilməsini, yaxud israf edilməsini önləmək üçün aralıq dondurma orderləri çıxarıb. Zamirə Hacıyeva 2006-2016-cı illərdə Londondakı Harrods ticarət mərkəzində 16 milyon funt-sterlinqdən (21.3 milyon dollar) çox pul xərcləməsilə gündəmə gəlmişdi. 2018-ci ilin fevralında məhkəmə çəkişməsi başlananda bütün bu əmlakın 22 milyon funt-sterlinqdən çox (29.2 milyon dollar) dəyəri olduğu bildirilirdi. Ancaq onun vəkilləri iddia qaldıraraq deyirdilər ki, NCA onu qanunsuz olaraq hədəfə alıb. Hansısa pozuntuya yol vermədiyini deyən Hacıyeva daha öncəki məhkəmə instansiyalarının orderi ləğv etməsinə nail olmamışdı. Onun əri Cahangir Hacıyev 2015-ci ilin martınadək Azərbaycan Beynəlxalq Bankının (ABB) İdarə Heyətinin sədri olub. Bir il sonra o, mənimsəmə, vəzifə saxtakarlığı, vergidən yayınmada təqsirli bilinib. 2019-cu ildə isə ABB-nin Moskva filialından mənimsəmədə təqsirləndirilib. Hazırda 16 illik cəza çəkir.

Bu arada baş nazirin birinci müavini Yaqub Eyyubovun oğlu Orxan Eyyubov İngiltərənin Berkshire şəhərindəki şirkətlərindən birini bağlayıb. Bu barədə jurnalist Cavanşir Həsənli yazıb. Jurnalistin araşdırmasına görə, onun 75 faiz payla sahib olduğu 2020-ci ilin noyabrında Britaniya Şirkətlər Evində qeydiyyatdan keçmiş “NEW CANADA LIMITED” şirkəti (Qeydiyyat nömrəsi 13044330) bu ilin yanvarında ləğv edilib və reyestrdən çıxarılıb. “NEW CANADA LIMITED” Orxan Eyyubovun təsisçisi olduğu “NEW CANADA CAPİTAL LTD”nin törəmə müəssisəsi kimi fəaliyyət göstərib. Sənədlərə görə ləğv olunan şirkətin 25 faiz hissəsi Orxan Eyyubovdan 3 yaş böyük olan ingilis xanım Cennifer Mari Makdonalda, digər 25 faiz isə onun atası Mr Con Macdonalda məxsus olub. “NEW CANADA CAPİTAL LTD”nin ötən ilki maliyyə sənədlərinə əsasən aktivlərinin həcmi 15 milyon funt-sterlinqdən artıq olub.



**Cavanşir Həsənli Naxçıvan Ali Məclisinin sabiq sədri Vasif Talıbovdan da yazıb**: “Talıbovların Londondakı 40 milyonluq bina inşa edən şirkəti iyunun 21-də könüllü iflas qərarı elan edib və ləğvetmə prosesinə başlayıb...”

Digər məmurların xaricdəki biznesləri ciddi təhlükə altında olduğu bir zamanda Azərbaycanın sabiq nəqliyyat naziri Ziya Məmmədovun oğlu Anar Məmmədovun Londonda biznesi inkişaf etməkdədir. 43 yaşlı Anar Məmmədov Amerika qızartma toyuq zənciri KFC-nin İngiltərədə françayzinqinə milyonlarla dollar xərcləyib. Məlumata görə, KFC şəbəkəsinə yatırımları Məmmədovun Britaniyadakı biznes və daşınmaz əmlak portfoliosunun - əmlak çantasının bir hissəsidir. “Transparency International UK” təşkilatının Britaniya torpaq reystrindən əldə etdiyi qeydlərə görə, bu portfolioya Londonun ən bahalı küçələrində toplam dəyəri 30 milyon dolları aşan daşınmaz əmlak da daxildir. O, bu daşınmaz əmlakın çox hissəsini atasının nazir olduğu vaxtda əldə edib. Anar Məmmədovun İngiltərədəki KFC portfoliosuna indi azı 20 restoran daxildir. Bu restoranlar onun Britaniyadakı şirkətinin 3 törəmə şirkətinə aiddir. Ən son maliyyə hesabatlarına görə, Məmmədovun “1st Rate Investments (UK) Limited” şirkətinin 2021 və 2022-ci illər üçün orta dövriyyəsi 50 milyon dollar civarında, səhmdarların vəsaitləri isə 2022-ci ildə 7 milyon dollar məbləğində olub. Maliyyə hesabatları Məmmədovun Britaniya Vircin adalarında nəzarət etdiyi “1st Rate Investments Limited” adlı şirkətin Britaniyadakı KFC bizneslərinə 10 milyon dollardan çox faizsiz kredit göndərdiyini göstərir. Maliyyə sənədlərindən görünür ki, Məmmədov sonradan öz KFC bizneslərindən milyonlarla dolları kredit və dividentlər şəklində yenidən özünün Vircin adalarındakı şirkətinə köçürüb.

**“Bakı” Hüquq Şirkətinin rəhbəri Natiq Ələsgərov “Yeni Müsavat”a deyib ki, uzun illər boyunca Azərbaycanda yüksək vəzifədə olub xaricə pul daşıyan məmurların durumu hər ötən gün ağırlaşır:** “İllər öncə Böyük Britaniya qərar verib ki, mənbəyi göstərilməyən, korrupsiya yolu ilə əldə edilməsi istisna olunmayan mal-mülklər "milliləşdirilsin", yəni həmin mal-mülk Böyük Britaniyanın nəzarətinə keçirilsin. Bu qanun çıxarılana qədər London keçmiş postsovet məkanından olan yüksək çinli məmurların sevimli ünvanı, korrupsiya pullarının “cənnəti” idi. İngilislər yığışdılar, qanun qəbul edib postsovet məkanından olan minlərlə korrupsioner məmurun on illərlə Londona daşıdıqları milyonları əllərindən almağa nail oldular. Bir qanun ingilislərə milyardlar qazandırdı. Halbuki həmin pulları oğurlayan məmurların mənsub olduqları ölkələrdə o milyardlara böyük ehtiyac var".

**Natiq Ələsgərov deyib ki, eks-məmurların, onların övladlarının Londondakı əmlaklarını satıb oradan uzaqlaşması da əsasən həmin qanunla əlaqəlidir:** “Başa düşürlər ki, gec-tez ingilis məhkəməsinin məmurları onların da qapısını döyəcək. Bu zaman Londonda alınan mal-mülkə verilmiş 20-30 milyonun mənbəyini soruşacaqlar. Cavab isə əlbəttə ki, inandırıcı olmayacaq və əmlakları təhlükə altına düşəcək. Ona görə də bu başdan özlərini müflis elan edib aradan çıxırlar”.

**Ziya Məmmədovun oğlu Anar Məmmədova gəlincə, Natiq Ələsgərov deyib ki, mümkündür ki, o, Londona sərmayə kimi daşıdığı milyonların “təmizlənməsinə” nail ola bilib:** “Anar Məmmədov Londonda biznes qurmazdan əvvəl Azərbaycanda ailə şirkətlərinə rəhbərlik edib. Həmin ailə şirkətinin isə real dövriyyəsi olub. Hər kəsə aydındır ki, həmin ailə şirkəti hansı pullar hesabına qurulub, inkişaf etdirilmişdi. Xatırlayırsınızsa, 2017-ci ildə İsveç prokurorluğu "Bombardier" şirkətinin əməkdaşı Yevgeni Pavlovu azərbaycanlı məmurlara rüşvət verilməsində ittiham etmişdi. Prokurorluq Pavlovun 340 milyon dollarlıq müqaviləni şirkəti üçün almaq məqsədilə Azərbaycandakı məmura rüşvət verdiyini iddia edirdi. O zaman həmin məmurun Ziya Məmmədovun olması barədə xəbərlər vardı. Düzdür, həmin ittiham sübut çatışmazlığı üzündən təsdiq olunmadı. Yəni Ziya Məmmədovun adı daim rüşvət və korrupsiyanın mərkəzi fiquru kimi çəkilirdi. Buna baxmayaraq, mümkündür ki, Anar Məmmədov Londona sərmayə kimi apardığı milyonların mənbəyini göstərə bilib və bu gün o, Londonda biznesini inkişaf etdirməkdədir. Çox keçməz, hiyləgər ingilislər belə istisnalar üçün də bir qanun düşünərlər".

❑ **E.MƏMMƏDƏLİYEV, “Yeni Müsavat”**

# Zərdabda “Xüms” toplayan tutuldu

**Azərbaycanda İranın molla rejiminə xidmət edən, ölkəmizdə onları təbliğ edənlərə qarşı mübarizə tədbirləri davam edir.**

“MOUZE” teleqram kanalı xəbər verir ki, bir neçə gün əvvəl Zərdabda Xüms adı ilə İrana görə tutulan casusların ailələrinə pul yığılması barədə hüquq-mühafizə orqanlarına məlumat daxil olub.

Daxil olan əməliyyat məlumatı əsasında həyata keçirilən tədbirlər zamanı Zərdab şəhər sakini Namiq Şirinov saxlanılıb.

Lent.az-ın əldə etdiyi məlumata görə, Namiq Şirinov narkotiklərin qanunsuz dövriyyəsində təqsirli bilinərək həbs edilib.

# Həbsdə olan tanınmış MMA döyüşçüsü azadlığa çıxıb



**Xuliqanlıqda ittiham olunan MMA və Qrappling Federasiyasının qarışıq döyüş növləri üzrə tanınmış idmançı Vüqar Kərəmov azadlığa buraxılıb.**

“Report” xəbər verir ki, cəza müddəti başa çatan Vüqar Kərəmov saxlandığı İstintaq Təcridxanasından sərbəst buraxılıb. Onunla birgə ittiham olunan Ruslan Əfəndiyev və tələbələri - Xəzər Rüstəmov və Rüfət Əsədov bir neçə gün qabaq azadlığa çıxıb.

Qeyd edək ki, hadisə ötən il Səbayel rayonu ərazisində baş verib.

İttihama görə, təqsirləndirilən idmançılar “Rizin” Döyüş Federasiyasının paytaxtda təşkil etdiyi turnirlə bağlı toplaşarkən mübahisə yaranıb. Mübahisə zamanı idmançı Həsən Əzizov döyülüb.

Cinayət işinin istintaqı Bakı Şəhər Baş Polis İdarəsi tərəfindən aparılıb. Bu il yanvarın 31-də Ruslan Əfəndiyev və onun tələbələri - Xəzər Rüstəmov, Vüqar Kərəmov və Rüfət Əsədov barəsində həbs-qətimkan tədbiri seçilib. Tofiq Musayev və Mehman Məmmədov istintaq dövrü müddəti üçün həbslə bağlı olmayan qətimkan tədbiri seçilib. Daha sonra təqsirləndirilən şəxslərə Cinayət Məcəlləsinin 221.2.1-ci (bir qrup şəxs tərəfindən və ya təkrarən xuliqanlıq törədildikdə) maddəsi ilə yekun ittiham irəli sürülüb.

İstintaqın sonunda iş üzrə təqsirləndirilən Mehman Məmmədovun barəsindəki cinayət işinə bəraətverici əsaslarla xitam verilib.

Səbayel Rayon Məhkəməsinin hökmü ilə Xəzər Rüstəmov, Rüfət Əsədov və Ruslan Əfəndiyev, Vüqar Kərəmovun hər biri 6 ay müddətinə azadlıqdan məhrum edilib.

Tofiq Musayev isə 1500 manat miqdarında cərimə edilib.

YENİ MÜSAVAT
N 138 (8511) 7 avqust 2024



# Şoyqunu Tehrandan Bakıya gətirən iki səbəb

## TŞ katibinin regionda təhlükəsiz hesab etdiyi Bakıda gecələməyə qərar verməsi təbiidir, amma tək səbəb bu deyil...

**Rusiya Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqunun əvvəl Tehrana, oradan isə Bakıya səfəri dərhal Qərb analitiklərinin diqqət mərkəzinə düşüb.**

"The New York Times" öz mənbələrinə istinadən yazıb ki, İran Putinin elçisi vasitəsi ilə Rusiyadan yeni hava hücumundan müdafiə sistemləri istəyib. İstək operativ şəkildə icraya qəbul olunub: Moskva artıq onları çatdırmaq protokollarına start verib. Nəşr iddia edir ki, iki İran rəsmisi Rusiyanın artıq radarlar və digər hava hücumundan müdafiə vasitələrini tədarük etməyə başladığını təsdiqləyib.

Şoyqunun Tehrandan birbaşa Bakıya gəlməsi də xüsusi diqqət çəkib. Bununla bağlı müəyyən ehtimallar səslənib. Ehtimallardan biri budur ki, Şoyqu hazırda gecəni müharibə gözləntisində olan İranda qalmaq istəməyib. Bir neçə gün əvvəl HƏMAS liderinin Tehranda öldürülməsinin Rusiya rəsmilərini ehtiyatlandırması anlaşılandır. O səbəbdən Şoyqunun və yanındakıların regionda təhlükəsiz hesab etdiyi Bakıda gecələməyə qərar verməsi təbiidir. Əlbəttə ki, bu, rəsmi elan edilməmiş səfər təəssüratı yaratsa da, Bakı Təhlükəsizlik Şurasının katibinin planları barədə əvvəldən xəbərdar edilib.

İkinci mümkün versiya budur ki, regionda qlobal müharibəni önləmək cəhdlərində rəsmi Bakı da yaxından iştirak edir. Ya da paytaxtımız hər zamankı kimi, qarşıduran tərəflərə etibarlı danışıq masası təşkil etməyin məsuliyyətinə üzərinə götürə bilər.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 6-da Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqunu qəbul edib.

Prezident İlham Əliyev Sergey Şoyqunun səfərinin ikitərəfli münasibətlərin gündəliyi və qarşılıqlı maraq doğuran məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını deyib. Dövlətimizin başçısı Azərbaycanla Rusiya arasında regionda gedən proseslərlə bağlı mütəmadi təmasların əhəmiyyətini qeyd edib. Dövlət başçısı iki ölkənin siyasi rəhbərliyi arasında qəbul olunmuş qərarların, məhz "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında" Bəyannaməsinin müddəalarının uğurla həyata keçirilməsini məmnunluqla qeyd edib.

Sergey Şoyqu ölkələrimiz arasında regional təhlükəsizlik, hərbi-texniki, nəqliyyat, iqtisadi sahələrdə əlaqələrin uğurla inkişaf etdiyini vurğulayıb. Şoyqu ölkəsinin Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması prosesini dəstəklədiyini bildirib.

Görüşdə 3+3 formatında əməkdaşlığın perspektivləri müzakirə olunub.

❑ **"Yeni Müsavat"**

# İran nüvə dövlətidir, yoxsa "bomba rabatay..."

## Tehranın atom silahı əldə etməsi iddiası blefdir və "strateji çəkindirmə" məqsədi daşıyır

**İran parlamentinin üzvü Əhməd Ərdəstaninin İranın nüvə silahı əldə etdiyi haqda iddiası dünya mediasının da diqqətini çəkib. "Regnum" xəbər verir ki, hələ aprelin sonunda Almaniyanın "Bild" nəşri İranın tezliklə nüvə silahının hazırlanmasını başa çatdıracağını yazmışdı.**

Təl-Əviv Universitetinə bağlı Milli Təhlükəsizlik Araşdırmaları İnstitutunda çalışan ekspert Sima Şine İranın nüvə silahı yaratmaq üçün kifayət qədər zənginləşdirilmiş urana malik ola biləcəyini irəli sürüb. Bundan əvvəl MAQATE-nin baş direktoru Rafael Qrossi BMT-nin Təhlükəsizlik Şurasının iclasından sonra bildirmişdi ki, İranın zənginləşdirilmiş uran toplaması Tehranın nüvə silahına malik olması demək deyil. Onun sözlərinə görə, MAQATE etibarlı məlumata malik deyil və İranın nüvə silahı yaratması ilə bağlı bəyanat verə bilməz. Yada salaq ki, İran öz atom bombasını yaratmaqda 1979-cu il İslam inqilabından əvvəl ABŞ və Almaniya kömək edirdi. Lakin beynəlxalq ictimaiyyətin, o cümlədən Rusiya və Çinin təzyiqi ilə İran öz planlarına yenidən baxaraq bu proqramı dondurmaq üçün müqavilə imzaladı. 2015-ci ildə ABŞ, Rusiya, Çin, Fransa, Böyük Britaniya, Almaniya, Avropa İttifaqı və İran Birgə Hərtərəfli Fəaliyyət Planına (JCPOA) razılaşdılar. Tramp hakimiyyətə gələn kimi isə bu sazişdən çıxdı və İran nüvə silahının yaradılmasına hazırlığı bərpa etmək qərarına gəldi.

Haniyənin Tehranda öldürülməsindən sonra İran-İsrail gərginliyi yenidən pik həddə çatıb. Nüvə silahının əldə edilməsi barədə iddianın indi ortaya atılmasının səbəbi və hədəfi nədir? İran blef edir, yoxsa...

**Siyasi təhlilçi Sona Əliyeva hesab edir ki, İran İsrail qarşısında "time-out" götürüb:** "Tehran hökuməti bütün sürəti ilə nüvə silahının hazırlanması prosesini başa çatdırmaq istəyir. Bundan sonrakı proseslərdə İran İsraillə nüvə dövləti kimi danışmaq niyyətindədir. İsrail isə bunu yaxşı başa düşür və hər vəchlə "ilanın başını yuvasında əzmək" üçün çabalar göstərir. Düşünürəm ki, Tehrandakı rejim Haniyənin qisasını "yüngül formada" alacaq. Yəni bir-iki raketlə məsələni həll etməyə və İrandakı dindar kəsimin hirsini soyutmağa çalışacaq. İranın nüvə silahına hazırlığının hansı mərhələdə olması bəlli deyil. Çünki Tehran rejimi MAQATE-ni ölkəyə buraxmır. Beynəlxalq ictimaiyyət də İranın uranın zənginləşdirilməsi ilə bağlı addımlarından narahatdır. Düşünürəm ki, bu ilin sonu, gələn ilin əvvəlinə qədər İran uranın zənginləşdirilməsini 100 faizlik həddə çatdıracaq. O zaman təkcə İsrail üçün yox, Türkiyə, Pakistan, İraq, Əfqanıstan, hətta Azərbaycanla Türkmənistan üçün böyük təhdidlər yaranacaq. İranın nüvə silahına sahib olması region ölkələrinin də maraqlarına uyğun deyil. Əgər



Tramp hakimiyyətə gələrsə, o zaman İranın nüvə yolunda ciddi manеələr yarana bilər. İsraildə İranın atom irəliləyişi ilə bağlı kifayət qədər geniş məlumatların olduğunu düşünürəm. Hesab edirəm ki, İsrail yaxın vaxtlarda İrana qarşı daha genişmiqyaslı əməliyyatlar həyata keçirəcək. Buraya Tehranın proksi güclərinə qarşı amansız həmlələr də daxildir. Artıq İsrail Livan və Suriyadakı İranın hərbi güc mərkəzlərini zərərsizləşdirməyə başlayıb. Payız-qış kampaniyasında bu prosesin daha da intensivləşəcəyini düşünürəm. Paralel olaraq İsrail kəşfiyyatı İranın nüvə proqramı üzərində işləyən şəxslərini də hədəf alacağını, onların fiziki məhvini nəzərdə tutan məxfi planlar üzərində var-gəl etdiyini də nəzərdən qaçırmamalıyıq. Bir sözlə, İranı qarşıdakı aylarda çox çətin və mürəkkəb bir durum gözləyir. Hətta yaxın illər ərzində Tehran molla rejiminin içəridən parçalanması ehtimalı da yüksəkdir".

**AMİP liderinin köməkçisi, politoloq Əli Orucov İranın İsrailə hücum etməyəcəyini düşünür:** "İran-İsrail ziddiyyətlərinin müharibə həddinə çatdığı indiki dönəmdə parlament üzvünün belə bir bəyanatla çıxış etməsi çəkindirici və xof yaratmaq məqsədi daşıyır. HƏMAS lideri Haniyənin Tehranda qətlə yetirilməsi İranın beynəlxalq nüfuzuna ciddi zərbə oldu və rejimin nüfuzuna sarsıdıcı təsir göstərdi. Ona görə İsrailə qarşı hansısa tədbir görməsi qaçılmaz oldu. Ən çox hallandırılan proksi qüvvələri ilə sinxron şəkildə İsrailə hava zərbələri endirəcəyi versiyasıdır. İsrail də əks zərbə endirəcəyini deyib. Belə olan halda Tehran dilemma qarşısında qalır. Aydın məsələdir ki, İran İsraillə müharibə aparmaqdan ehtiyat edir. Bilir ki, bu İran üçün gözlənilməz və ağır nəticələr yaradar. Deməк, həm beynəlxalq ictimaiyyəti, həm də İsraili və onun qərbli müttəfiqlərini tərəddüdə saxlamaq üçün nüvə silahı məsələsi məqsədli şəkildə dövriyyəyə buraxılır. Ötən dəfə ki, İranın İsrailə hava hücumu effektli olmadı və buraxılan raketlər və pilotsuz uçuş aparatları İsrail və ABŞ müdafiə xəttini keçə bilməyərək havada məhv edildi. İranın vəd etdiyi indiki qisas əməliyyatı da, deyildiyi kimi, sarsıdıcı deyil, bir növ təbliğat üçün "hücum"dan o yana getməyəcək. Əvvəla ona görə ki, İran ən müasir və dəqiq hədəfləri vura bilən uzaqmənzilli raket kompleksinə malik deyil. İnsansız pilotsuz tərəflər də hədəfə çatanadək İsrail sərhədlərindən kənarda vurulur. Məncə, İran İsraillə qarşıdurmanı uduzub və hərbi əməliyyatlar aparmağa da risk etməyəcək. Ol-sa-olsa sonuncu hücumdan fərqli olmayan hücum həyata keçirə bilər ki, bu da Yaxın Şərq böhranının nizamlanmasına təsir göstərməyəcək. İranın İsrailə qarşı müharibə ritorikası ABŞ-a bölgəyə daha çox silahlı qüvvə cəmləşdirməsinə bəhanə verir. Əsil təhlükə məhz budur".

**Siyasi analitik Asif Nərimanlı İranın nüvə silahına sahib olmasını inandırıcı saymır:** "İranın uranı zənginləşdirdiyi sirr deyil və nüvə danışıqlarının arxa plana keçməsi fonunda bu istiqamətdə atdığı addımları beynəlxalq ictimaiyyətdən gizlədir. Bu gizlilik İrana sərf edir, çünki uranı nüvə silahı yarada biləcək qədər zənginləşdirməsi üçün zaman qazanır. Lakin İranın hazırda nüvə silahına malik olması inandırıcı deyil. Birincisi, "nüvə beşliyi" - ABŞ, Rusiya, Çin, Böyük Britaniya və Fransa öz sıralarına yeni ölkənin qəbul edilməsində maraqlı deyil. "Nüvə beşliyi" Ukraynada müharibə başlanmamışdan bir neçə ay öncə nüvə silahının yayılmasına qarşı birgə razılaşma əldə etdi və bu ölkələr arasında mübarizə getsə belə, nüvə məsələsində ortaq mövqedən çıxış edirlər. İkincisi, İranın nüvə silahı əldə etməsi və bunu gizli saxlaması ehtimalı azdır. Əgər belə bir silah əldə etsəydilər, bu haqda xarici xüsusi xidmət orqanları məlumat əldə edərdilər. Son hadisə - Haniyənin Tehranda öldürülməsi bu ölkənin təhlükəsizlik mühitinin zəif olduğunu və belə bir mühitdə informasiyanın da qorunmasının çətinliyini ortaya çıxardı. Bu baxımdan, Ərdəstaninin iddiası blefdir və bu, "strateji çəkindirmə" məqsədi daşıyır".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 138 (8511) 7 avqust 2024

# “Zəngəzur onların nəzarətinə keçir” iddiası

## Azərbaycan dəhlizə nəzarətin hər hansı bir beynəlxalq quruma verilməsi ilə yalnız o halda razılaşa bilər ki...

**Zəngəzur dəhlizinin ilkin mərhələdə hansısa beynəlxalq təşkilatın nəzarətinə veriləcəyi haqda iddialar artmaqdadır. “Yeni Müsavat” xatırladır ki, bu barədə ilk dəfə Ermənistan parlamentinin sədri Alen Simonyan danışmışdı. Simonyan parlamentin iclasında iki ölkə arasında kommunikasiyaya nəzarətin üçüncü dövlətin və ya təşkilatın verilməsi variantına razılıq verə biləcəklərini demişdi. Spiker əlavə etmişdi ki, söhbət hansısa regional ölkədən gedə bilməz.**

Bəllidir ki, 10 noyabr 2020-ci il sənədinə görə Azərbaycanın qərb rayonları ilə Naxçıvanı birləşdirən maneəsiz yola Rusiya FTX-nin Sərhəd Xidməti nəzarət etməlidir. Simonyan “düşünmürəm ki, bu, hansısa regional ölkə ola bilər” sözləri ilə birbaşa bəyanatın bu bəndini və region ölkəsi olan Rusiyanı nəzərdə tuturdu. Yəni heç bir halda, nəzarətin Rusiyaya verilməyəcəyini elan edirdi.

O, yola nəzarət üçün Ermənistanın Milli Təhlükəsizlik Xidmətinin tərkibində müvafiq qurum yaradıldığını və bu qurumun məsuliyyəti üzərinə götürməyə hazır olduğunu bildirməklə yanaşı, təhlükəsizliyin təmini üçün “bir təşkilat” müzakirəsinə də açıq olduqlarını qeyd etmişdi. Hələ o zaman da bəlli idi ki, söhbət “Fronteks” kimi tanınan təşkilatdan - Avropa Sərhəd və Sahil Mühafizəsi Agentliyindən gedir.

“Fronteks” 2004-cü ildə Xarici Sərhədlərdə Əməliyyat Əməkdaşlığının İdarə edilməsi üzrə Avropa Agentliyi kimi yaradılıb və ilk növbədə sərhəd nəzarəti səylərinin əlaqələndirilməsinə cavabdehdir. 2015-ci ildə qurum Avropa Sərhəd və Sahil Mühafizəsi Agentliyinə çevrilib, 6 oktyabr 2016-cı ildə Bolqarıstanın Türkiyə ilə xarici sərhədində rəsmi olaraq fəaliyyətə başlayıb.




Büdcəsi də 2015-ci ildə 143 milyon avro idisə, 2021-ci ildə artıq 543 milyon avroya yüksəlib. Agentliyin əməkdaşlarının 2027-ci ilə qədər 10.000 nəfərə çatdırılması planlaşdırılır.

“APRI Armenia” analitik mərkəzinin analitiki Sergey Melkonyan isə həftəsonu "AzadlıqRadiosu"nun erməni xidmətinə açıqlamasında yenidən bu mövzunu gündəmə gətirərək ilginc açıqlama verib. Onun iddiasına görə, Ermənistanla Azərbaycan arasında bəzi ilkin razılaşmalar var. İlkin mərhələdə hansısa özəl beynəlxalq təşkilat dəhliz deyilən kommunikasiya xəttinə nəzarət etməlidir.

“Əvvəlcə hansısa beynəlxalq özəl şirkət ora (Zəngəzur dəhlizinə) nəzarət edəcək. Sonra birgə nəzarət həyata keçiriləcək”, - deyə Melkonyan bildirib.

Maraqlıdır ki, bugünlərdə Rusiyanın Ermənistandakı fövqəladə və səlahiyyətli səfiri Sergey Kopırkin “Zəngəzur dəhlizinin yaradılması gündəmdə deyil”, - deyə açıqlama verib.

Azərbaycan Zəngəzura nəzarətin “Fronteks”ə verilməsinə razılaşa bilərmi? ABŞ və Avropa İttifaqına yaxın bir qurumun Zəngəzura nəzarətinə Rusiya hansı reaksiya verər? Kopırkinin dəhlizlə bağlı dedikləri nə anlama gəlir?

**Yaranan bu suallara “Yeni Müsavat”da cavablayan deputat Azər Badamov dedi ki, dəhlizinin açılması haqqında 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli sənədin 9-cu bəndində aydın şəkildə yazılıb:** “Burada qeyd olunur ki, Azərbaycanın şərq rayonları ilə Naxçıvan arasında maneəsiz keçid təmin olunmalı və bu keçiddə Rusiyanın FTX-si təhlükəsizliyi təmin etməlidir.

Amma Ermənistan üçtərəfli bəyanatın heç bir bəndini icra etmədiyi kimi, Zəngəzur dəhlizi ilə bağlı müddəanı da icra etmək istəmir. Ermənistan hər bir vasitə ilə Rusiyadan uzaqlaşmağa və ölkəsinə Qərbi gətirməyə çalışır. Belə ki, Ermənistan müxtəlif bəhanələrlə Rusiyanın müəllifi olduğu KTMT tədbirlərinə qoşulmur, büdcəsinə vəsait ödəmir və bu təşkilatdan çıxacaqları ilə bağlı bəyanatlar səsləndirir. O cümlədən uzun illərdən sonra Zvartnos hava limanında xidmət çəkən FTX əməkdaşlarını Ermənistan əməkdaşları ilə əvəzlədi. Bütün bunlar onu göstərir ki, Paşinyan hakimiyyəti Zəngəzur dəhlizinə nəzarəti də Rusiyaya vermək istəmir. Ona görə də Rusiya səfiri Kopırkin açıqlamasında “Zəngəzur dəhlizinin açılması gündəmdə deyil” deməklə kifayətlənib. Ermənistan isə Zəngəzur dəhlizinə nəzarəti beynəlxalq nəzarətçilərə vermək istəyir. Əslində Qərbin kəşfiyyatçıları üç ildir ki, monitorinq qrupu adı altında Ermənistandadır. İndi isə Zəngəzur dəhlizinə nəzarət etmək üçün yeni bir qrupu gətirmək istəmələri də bir yenilik deyil. Azərbaycan üçün vacib məsələ Zəngəzur dəhlizinin açılmasıdır. Məhz dəhlizin açılması və Naxçıvana maneəsiz yolun olmasıdır. Yaxşı olardı ki, bu yola Rusiya FTX-si nəzarət etsin. Amma beynəlxalq təşkilatın nəzarət etməsi də qəbul olunan olduğunu hesab edirəm. Çünki əsas şərtimiz odur ki, Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvana gediş-gəlişimiz, yük daşımaları nəzarətə cəlb olunmamalıdır. Bu şərtimiz çərçivəsində dəhlizə kimin nəzarət etməsinin o qədər də önəm daşımadığını hesab edirəm".



AMİP Ali Məclisinin sədri, politoloq Rəşad Bayramovun fikrincə, Zəngəzur dəhlizi də həm Ermənistanla Azərbaycan arasında birbaşa nəqliyyat əlaqələri yarada, həm də Ermənistanın regionda iqtisadi təcridinə son qoymaqla yanaşı, iki ölkə arasında sülh quruculuğuna da mühüm töhfə verə bilər. Bunu Ermənistanın özündə də kifayət qədər yaxşı başa düşürlər. Ermənistan anlayır ki, Zəngəzur dəhlizinin açılmaması halında bu ölkənin regional layihələrdə iştirakı faktiki olaraq mümkünsüzdür və bu da iqtisadi baxımdan Rusiyadan asılılığın davam etdirilməsi deməkdir. Odur ki, dəhlizin açılması həm də Ermənistanın marağındadır. Amma problem ondadır ki, bu dəhlizin açılmasının hüquqi bazasını 10 noyabr 2020-ci tarixində Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanmış üçtərəfli bəyanatın 9-cu bəndi və 2021-ci il 11 yanvar tarixində Moskvada imzalanmış 4 bəndlik bəyanat təşkil edir. Yəni başqa sözlə desək, dəhlizin açılması halında həmin yola nəzarəti Rusiya tərəfindən təmin olunması ilə bağlı Paşinyanın da imzası olduğu sənəd Ermənistanın əl-qolunu bağlayıb. Ermənistana havadarlıq edən və bütün mümkün vasitələrlə Rusiyanın regiondan uzaqlaşdırılmasını qarşılarına məqsəd qoyan güclər dəhlizə nəzarətin Rusiyaya verilməsini heç bir halda qəbul etmək istəmirlər. Ona görə də bu istiqamətdə Paşinyan hakimiyyətinə təzyiq edirlər. Bu təzyiqlər fonunda və eləcə də xaricdən gələn maliyyə fonunda Ermənistanın dəhlizə nəzarəti Rusiyaya həvalə etməsi mümkünsüz olduğu üçün ortaya yeni təkliflər çıxır.

Zəngəzur dəhlizinə nəzarətin beynəlxalq quruma, indiki halda bununla bağlı daha çox adı hallanan Avropa Sərhəd və Sahil Mühafizəsi Agentliyi - “Fronteks”ə həvalə edilməsi də bu təkliflərdən biridir. Düzdür, “Fronteks” sərhəd nəzarəti səylərinin əlaqələndirilməsi ilə bağlı ixtisaslaşmış bir qurumdur, amma məsələ burasındadır ki, bu qurumun Zəngəzur dəhlizinə nəzarəti həyata keçirəcək heyətinin kimlərdən ibarət olacağı ilə bağlı konkret məlumat yoxdur. Yəni başqa sözlə, bu agentliyin bir Avropa qurumu olaraq Zəngəzur dəhlizindəki heyətə əsasən fransızları və ya bizə xoş münasibətdə olmayan dövlətlərin təmsilçilərini göndərməyəcəyi ilə bağlı hər hansı bir qarantiya yoxdur. Düşünürəm ki, Azərbaycan dəhlizə nəzarətin hər hansı bir beynəlxalq quruma verilməsi ilə yalnız o halda razılaşa bilər ki, həmin qurum dəhliz boyu nəzarəti həyata keçirəcək heyəti hər iki dövlətlə razılaşdırsın. Yəni həqiqətən neytral olacaq bir qurum və heyət olacaqsa, o zaman ortada hər hansı bir problem qalmayacaq.

Təbii ki, Rusiya Zəngəzur dəhlizinə nəzarətin qərb qurumuna verilməsini istəmir. Çünki dəhlizə nəzarət həm də faktiki olaraq həmin dəhlizdən istifadə edən ölkələrə təsir və təzyiq imkanı əldə etmək deməkdir. Odur ki, Rusiya nəzarətin ya özü tərəfindən həyata keçirilməsini, ya da, ümumiyyətlə, Zəngəzur dəhlizinin açılmasının müəyyən müddət üçün təxirə salınmasını istəyir".

❑ **Cavanşir ABBASLI, “Yeni Müsavat”**

## “Dəhliz o vaxta qədər açılmamalıdır”

**“Zəngəzur dəhlizinin açılmasını təkcə Azərbaycan və Türkiyə yox, Böyük Britaniya və ABŞ da istəyir.**

Teleqraf.com xəbər verir ki, bunu erməni hərbi ekspert Hayk Nahapetyan deyib.

Onun sözlərinə görə, Arazdəyən və Qafan istiqamətindəki Rusiya sərhədçilərinin çıxarılmasının səbəbi dəhlizlə bağlıdır, bu, Ermənistan rəhbərliyinin istəyi ilə baş tutub.

“Bu plan təkcə Azərbaycan və Türkiyə yox, həm də Britaniya və ABŞ-la bağlıdır. Onların planı Ermənistanı tranzit əraziyə çevirməkdir. Əsas məsələ insanlar və yüklərin bu ərazidən (Zəngəzur) daşınmasıdır. Xətt İraq, Liviya, Türkiyə, Azərbaycan (Naxçıvan), Ermənistan və Orta Asiya respublikalarını əhatə etməlidir”, - Nahapetyan vurğulayıb.

**Ekspert Ermənistanın Zəngəzur dəhlizinin açılması ilə bağlı 10 noyabr üçtərəfli bəyanatı üzrə öhdəlik götürdüyünü də xatırladıb:** “Ermənistan 10 noyabr sənədinin 9-cu bəndini yerinə yetirmir, burada kommunikasiya və yolların açılması nəzərdə tutulur, Azərbaycan buna hazırdır. Bəs Ermənistan niyə bunu etmir, çünki Britaniya və ABŞ Ermənistanın qarşısına tələb qoyub ki, həmin yollara nəzarət Rusiyada olmamalıdır. Çünki 10 noyabr müqaviləsində qeyd olunur ki, nəzarəti Rusiya tərəfi həyata keçirəcək. İndi ABŞ və Britaniyadan İrəvana bildirilib ki, Rusiya bundan kənarda qalanadək dəhliz açılmasın”.

Yeni MÜSAVAT
N 138 (8511) 7 avqust 2024

**Amerikalı politoloq Maykl Rubin “Mirror Spectator” (“Güzgü Tamaşaçısı”) nəşrinə yazdığı məqalədə Azərbaycan haqda qərəzli və yalan iddialarla çıxış edib. Britaniyanın milli gündəlik tabloid qəzeti “Mirror”un əsası 1903-cü ildə qoyulub. Bazar günləri “Sunday Mirror” adı ilə nəşr olunur.**


MIRROR-SPECTATOR
JULY 20, 2024
Armenia Launches Joint Military Drills with US Amid Souring Ties with Old Ally Russia

# “Mirror” nəşrindən Azərbaycana hədyanlar

## Amerikalı politoloq Maykl Rubinin yalanlarına Bakıdan reaksiya: “Reallıqları dəyərləndirməyi bacarmayan və siyasi səriştəsi olmayan zavallı...”

Maykl Rubin məqalədə yazıb ki, “Azərbaycan Prezidenti İlham Əliyev ərazisi Dağlıq Qarabağdan üç dəfə böyük olan Fransanın dəniz kənarında yerləşən Yeni Kaledoniyadakı separatçı etirazlara dəstəyini ikiqat artırıb. Qaz gəlirləri bu ərazidəki iğtişaşları maliyyələşdirmək üçün yönəldilir”.

**Politoloq “Azərbaycan rəsmilərinin və mediasının Ermənistanı "Qərbi Azərbaycan" adlandırdığını və bütün ərazilərin tarixən onlara məxsus olduğunu" bildirir:** “Məhz buna görədir ki, Fransanın Ermənistana hərbi dəstəyi bu gün çox vacibdir və açığını desək, ABŞ və digər ölkələr ondan nümunə götürməlidir”.

Maykl Rubin həyasızcasına işarə vurur ki, Fransa Azərbaycanda hakimiyyəti dəyişmək istəsə, “Parisin çoxlu tərəfdaşları olacaq”. O, Böyük Britaniyanın və “British Petroleum”un Azərbaycanla illərdir iqtisadi tərəfdaşlığına da qısqanc münasibətini gizlətməyib.

**Sabiq maliyyə naziri, siyasi və iqtisadi məsələlər üzrə ekspert Fikrət Yusifov** dedi ki, Azərbaycanın ünvanına növbəti qarayaxmalarla çıxış etmiş amerikalı politoloqun köklərini bir qədər araşdırsan, oradan mütləq bu və ya digər formada erməni əlamətləri çıxacaq: “Yeni adamın ailəsində kiminsə erməni olması və ya onun ABŞ-dakı erməni lobbisi tərəfindən yemləndiyi bəlli olacaq. Belə "politoloqlar" ürək bulandırmağa cəhd etməkdən başqa heç nəyə gücü çatmayan əlacsızlardır. Onun Azərbaycanın ünvanına söylədikləri şər-böhtanları biz artıq çox eşitmişik, bu deyimlərdə yeni heç nə yoxdur.

Fransanın Azərbaycana qarşı heç bir əsası olmayan basqılarına rəsmi Bakı susmalı deyildi ki? Adamın həyasızlığı o yerə çatır ki, ingilis hökumətini Azərbaycanla əməkdaşlıqda və yaxınlıq etməkdə ittiham edir. Politoloq olan kəs bu yaxınlığın köklərini anlamalı və bu böyüklükdə absurd yanlışa yol verməməli idi. Kiminlə dostluq, kiminlə düşmənçilik etmək Azərbaycan hökumətinin seçimidir. Biz bu məsələdə çox doğru bir yoldayıq. Azərbaycan Prezidenti nə etdiyini çox yaxşı bilir. Onun sərgilədiyi uğurlu xarici siyasət Qarabağ uğurumuzun kökündə dayandı. Bu qəbildən olan ermənipərəstlər isə bu uğurları həzm edə bilmirlər. Azərbaycan xalqında Fransa prezidenti Emmanuel Makrona ölkəmizə ədalətsiz münasibətinə görə böyük bir nifrət formalaşıb. Fransanın tarixdə sərgilədiyi siyasi əxlaqsızlıqlar bütün dünyaya məlumdur. Azərbaycan xalqı mənəvi dəyərləri tam deqradasiyaya uğramış fransızlara qibtə etmir. Demokratiyanı eynicinslilərin evliliyi kimi anlayan bir millətin millətlər içərisində yeri olmamalıdır. Zamanla belə də olacaq. Ulu Tanrının insanlıq üçün müəyyən etdiyi həyat fəlsəfəsini çeynəyən “mavilərin” yolu uçurumadır. ABŞ-dan olan politoloqa isə reallıqları dəyərləndirməyi bacarmayan və siyasi səriştəsi olmayan bir zavallı kimi baxmaq lazımdır. Onun dediklərinə əhəmiyyət verməyək - it hürər karvan keçər...”

**AMİP sədrinin beynəlxalq əlaqələr üzrə müavini Elşən Mustafayev zamanla bəzi dövlətlərin əsl simalarının üzə çıxdığını hesab edir:** “Azərbaycanın keçirdiyi antiterror əməliyyatına qədər üzdə guya tərəfsiz kimi özünü göstərən bir sıra dövlətlər əməliyyatdan sonra açıq şəkildə üzərimizə gəlməyə başladılar. Əllərində olan bütün imkanlardan istifadə etməklə hər tərəfdən Azərbaycan əleyhinə işlər görürlər. Bu işlərin başında Fransa gəlir. İlk etapda Ermənistanı silahlandırmağa start verməklə Hindistanın timsalında digər ölkələri də bu istiqamətdə fəaliyyət göstərməyə sövq etdi. Yeni bununla regionda tezliklə sülh müqaviləsinin bağlanması yolunda əngəllər yaratmağa başladı. Bu işləri görən dövlətin Azərbaycanı nələrdəsə ittiham etməsi ən azından ayıbdır. Müstəmləkəsində saxladığı ərazilərdə mərkəzdən qaçma meyllərinin artmasında ilk növbədə apardığı siyasəti günahladırmadır. Azərbaycan minlərlə kilometr uzaqlıqda Fransa tabeliyində olan adalarda etirazlar yaradırsa, rəsmi Paris ilk növbədə indiyədək apardığı siyasətin iflasa uğradığını etiraf etməlidir. Azərbaycanı bunda ittiham etməməlidir. Afrikadakı təsir imkanlarının yox olmasını da Azərbaycan etmişdi? Son illər Azərbaycana edilən haqsız basqıların bir nəticə vermədiyini və müqavimətin kifayət qədər güclü olduğunu görən həmin ada dövlətləri Azərbaycanı nümunə kimi özlərinə örnək də götürə bilərlər, hətta rəsmi əlaqələr də qura bilərlər, Azərbaycana gələ də bilərlər. Burada beynəlxalq hüququn pozulmasından söhbət gedə bilməz. Əksinə, hazırda beynəlxalq hüquq xalqların aşağılanmasını, assimilyasiyaya məruz qalmasını qəbul etmir. Fransadan min kilometrlərlə uzaqlarda okeanın ortasında mövcud olan xalqları, əraziləri koloniya halında saxlamaq bir gün etirazlara gətirib çıxarmalı idi. Azərbaycanın ortasında süni yaradılmış separatçı rejimi etirazlara baxmadan illərlə dəstəkləmək, onlara yardım etmək qınanılmalıdır. Yeni Koledoniyada, digər yerlərdə insanlar fransızları öldürməyiblər, əlavə torpaqlar işğal etməyiblər. Onların istəyi yalnız mövcudluqlarını saxlamaq, ikinci, üçüncü növ insan olmamaqdır. Bunun üçün etirazlarını bildirirlər. Hesab edirəm ki, Fransa yüz illər boyu əlində saxladığı iqtisadi sərvətlərini taladığı ərazilərin əlindən çıxacağını artıq çoxdan anlayıb və bunun qarşısını almağa çalışır. O səbəbdən həmin hadisələrin apardığı müstəmləkəçi siyasətin nəticəsi olaraq yarandığını etiraf etmək istəmir və kənardan süni şəkildə yaradıldığını deyir. Bununla o, həm ölkə daxilində əleyhinə fikirləri neytrallaşdırmağa çalışır, həm də Azərbaycanın üzərinə gəlməklə, beynəlxalq müstəvidə özünə dəstəkçilər axtarmaqla Ermənistanın timsalında özünə yeni koloniya formalaşdırmaq istəyir. Yeni Koledoniya və digər müstəmləkə xalqlarından fərqli olaraq Ermənistan məmnuniyyətlə belə bir koloniyaya çevrilmək istəyir. Amma alınmır. Çünki Fransa regiona girə bilmir və ona imkan vermirlər. O səbəbdən hazırda müxtəlif istiqamətlərdə, müxtəlif insanlar vasitəsilə Azərbaycanı nüfuzdan salmağa hesablanmış işlər görülür, yazılar yazdırılır və s. Amma neçə ildir ki, bu kampaniyanın içində olanlar əhatələrini genişləndirib yeni müttəfiqlər tapa bilmirlər. Mən deyərdim ki, hətta bu əhatədə daralma gedir”.

**❑ Cavanşir ABBASLI, “Yeni Müsavat”**

---

**ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin əsas müavini Yuri Kim Karneqi Sülh Fondunun təşkilatçılığı ilə ötən həftə keçirilmiş “Cənubi Qafqazda yeni regional nizam üçün ABŞ-ın rolu” adlı tədbirdə azərbaycanlılara qarşı ayrı-seçkiliyə yol verib.**

# ABŞ və Avropa Birliyi rəsmisinə etirazlar

## Yuri Kim və Toivo Klaar Ermənistandan zorla qovulmuş azərbaycanlıların qayıdış hüququ barədə niyə susdular...





Yuri Kim Azərbaycanın Qarabağ bölgəsindən könüllü şəkildə köçüb getmiş ermənilərin qayıdış hüququ haqqında danışdığı halda, Ermənistandan zorla qovulmuş azərbaycanlıların qayıdış hüququ barəsində bir kəlmə də deməyib.

Qərbi Azərbaycan İcması ABŞ-dan insan hüquqları məsələsində nümayiş etdirdiyi etnik və dini ayrı-seçkiliyə son qoymağı tələb edib. Ermənistandan qovulmuş azərbaycanlıların qayıdış hüququna hörmət etməyə çağırıb. İcma bildirib ki, bu, etnik və dini əsasda azərbaycanlılara qarşı ayrı-seçkilikdir. ABŞ rəsmisinin bu mövqeyi insanların hüquq bərabərliyi prinsipinə ziddir və bölgədə sülh və barışığa mane olur.

Qeyd edək ki, Avropa Birliyinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar da Azərbaycanın daxili işlərinə qarışan və Ermənistandan qovulmuş azərbaycanlıların bu hüququnun olduğunu isə inkar etməyə çalışıb. Bununla kifayətlənməyən Klaar Azərbaycanın Qarabağ regionundan köçmüş ermənilərin xüsusi hal olduğunu vurğulayıb.

Göründüyü kimi, AB nümayəndəsi özünə insanlara etnik mənsubiyyətinə görə hüquq vermək “səlahiyyəti” icad edib. Klaarın Ermənistandan zorla qovulmuş azərbaycanlılara münasibətdə sərgilədiyi bu münasibət onun özünün və təmsil etdiyi qurumun etnik və dini əsasda ayrı-seçkiliyinin sübutudur. AB rəsmisinin Qarabağ ermənilərinin məsələsini xüsusi vurğulaması isə bu qurumun münaqişənin həll edilməsini və Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsini həzm edə bilməməsinin göstəricisidir. Bütün bunlar, eləcə də AB-nin Ermənistana hərbi yardım ayırması, bu ölkənin sanksiya qaçaqmalçılığı yolu ilə külli miqdarda vəsait əldə edib silahlanmaya sərf etməsinə göz yumması və Fransa kimi AB üzvü ölkələrin Ermənistana böyük miqdarda silah satması regionda gərginlik yaratmağa xidmət edir. Qərbi Azərbaycan İcması Ermənistandan qovulmuş azərbaycanlılara qarşı irqçi ayrı-seçkiliyi, Azərbaycanın daxili işlərinə qarışmağı və regionda gərginlik yaratmağa xidmət edən bəyanatları sərt şəkildə qınayıb. İcma AB-dən Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 1-ci maddəsinə uyğun olaraq insanların hüquq bərabərliyi prinsipinə hörmət etməyi, Ermənistandan qovulmuş azərbaycanlılara münasibətdə nümayiş etdirdiyi ayrı-seçkiliyə son verməyi və onların qayıdış hüquqlarına hörmət etməyi tələb edir.

Xatırladaq ki, Ermənistandan zorla qovulmuş azərbaycanlıların qayıdış hüququ məsələsi barədə Qərbi Azərbaycan İcmasının ötən ilin aprel ayında ABŞ-ın dövlət katibi Antoni Blinkenə göndərdiyi məktub hələ də cavabsız qalıb. Qərbi Azərbaycan İcması beynəlxalq hüququn norma və prinsiplərinə sadiqliyini bir daha bəyan etməklə, Ermənistandan zorla qovulmuş azərbaycanlıların qayıdış hüququnun təmin olunması və onların dağıdılmış mədəni irsinin bərpası məqsədi uğrunda əzmlə davam edəcəyini bildirib.

**❑ “Yeni Müsavat”**



# 125 yerə 950 iddiaçı-radikalların boykotu alınmadı

## 287 namizəd 24 siyasi partiyanı təmsil edir

**İndiyə qədər 950 nəfərin deputatlığa namizədliyi qeydə alınıb. Bu barədə Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov bildirib. Onun sözlərinə görə, 287 namizəd 24 siyasi partiyanı təmsil edir. MSK-nın mətbuat katibi Şahin Əsədli bildirib ki, məsələ Seçki Məcəlləsinin 148.5-ci maddəsinə əsasən namizədlərin siyahısı Mərkəzi Seçki Komissiyasının saytında dərc olunmalıdır.**

Seçki Məcəlləsinin 148.5-ci maddəsində deyilir ki, qeydə alınmış namizədlərin dairələr üzrə siyahısı səsvermə gününə azı 20 gün qalmış Mərkəzi Seçki Komissiyası tərəfindən bu Məcəllənin 77.2-ci maddəsində göstərilən dövri nəşrlərdə dərc edilir.

Milli İstiqlal Partiyasının fəxri lideri, **istiqlalçı deputat Etibar Məmmədov** Moderator.az-a açıqlamasında deyib ki, partiyanın namizədlərinin çoxu qeydiyyatdan keçib. Özü isə 20 ildən çoxdur ki, heç bir seçkiyə qatılmır. E.Məmmədov deyib ki, seçkiləri boykot qərarının heç bir effekti yoxdur: "Sadəcə, seçkilərdə iştirak etməmək kimi bir şeydir. Boykot o zaman effektli olur ki, heç kəs seçkilərdə iştirak etməsin və iştirak etməmək haqda nəticəni də rəsmi şəkildə əldə etmək olsun. Yəni hazırda Azərbaycanda seçkilərdə seçicilərin sayına görə heç bir limit, kvota nəzərdə tutulmur. Əvvəllər seçkilərin baş tutması üçün seçicilərin 50+1 faizinin iştirakı vacib idi. Ancaq indi lap bir nəfər də iştirak etsə, seçki baş tutmuş sayılır. Bir sözlə, mövcud şəraitdə seçkiləri boykot etməyin hakimiyyətə də heç bir təsiri yoxdur..."

Qeyd edək ki, seçkilərdə iştirak edən partiyalardan 10-nun sədri namizəd olmayıb.

Müsavat Partiyasının sədri İsa Qəmbər, Ana Vətən Partiyasının (AVP) sədri Fəzail Ağamalı, Vətəndaş Həmrəyliyi Partiyasının (VHP) sədri Sabir Rüstəmxanlı, Ümid Partiyasının sədri İqbal Ağazadə, Vəhdət Partiyasının sədri Tahir Kərimli, Azərbaycan Demokrat Partiyasının (ADP) sədri Sərdar Cəlaloğlu, Ədalət Partiyasının sədri İlyas İsmayılov, Müasir Musavat Partiyasının sədri Hafiz Hacıyev, Milli Dirçəliş Hərəkatı Partiyasının sədri Fərəc Quliyev, Haqq Ədalət Partiyasının sədri Əli İnsanov namizədliklərini irəli sürməyib.

**Digər partiyaların sədrləri seçkilərdə iştirak edəcək:** Azərbaycan Milli İstiqlal Partiyasının (AMİP) sədri Arzuxan Əlizadənin namizədliyi qeydə alınıb. O, 27 saylı Sabunçu ikinci seçki dairəsindən namizəddir.

AG Partiyasının sədri Tural Abbaslının 21 saylı Nəsimi-Binəqədi seçki dairəsindən namizədliyi irəli sürülüb və partiya sədrinə artıq namizədliyinin qeydə alınması barədə müvafiq vəsiqə təqdim edilib. Azərbaycan Demokratik Maarifçilik Partiyasının (ADMP) sədri Elşən Musayev isə 116 saylı Qəbələ seçki dairəsindən namizəddir. Azərbaycan Xalq Partiyasının (AXP) sədri Pənah Hüseyn 68 saylı Sabirabad-Şirvan seçki dairəsindən namizədliyi qeydə alınıb. Böyük Quruluş Partiyasının (BQP) sədri Fazil Mustafanın 26 saylı Sabunçu birinci seçki dairəsindən namizədliyi qeydə alınıb. Milli Cəbhə Partiyasının (MCP) sədri Razi Nurullayev isə İmişli seçki dairəsindən namizədliyini irəli sürüb.

Demokratik İslahatlar Partiyasının (DİP) sədri Asim Mollazadə və REAL Partiyasının sədri İlqar Məmmədov 22 saylı Nəsimi-Yasamal seçki dairəsindən namizəddirlər. ƏHD partiyasının sədri Qüdrət Həsənquliyev isə 36 saylı Xətai-Suraxanı seçki dairəsindən namizədliyini irəli sürülüb. Partiya sədrinə artıq namizədlik vəsiqəsi təqdim edilib.

**Respublikaçı Alternativ Partiyasının (REAL) icra katibi, deputatlığa namizəd Natiq Cəfərli** mövzu ilə bağlı "Yeni Müsavat"a deyib ki, Azərbaycan reallığını nəzərə alsaq, ümumiyyətlə, boykotun heç bir effekti, həm də mənası yoxdur: "Hətta siyasi partiyaların seçkidə iştirak etməkdən imtinasını anlamaq da mümkün deyil. Çünki Azərbaycanda qanunvericiliyə görə, bir tək prezident seçkisində və referendumda ən azı 25 faiz iştirakçılıq olmalıdır. Burada sırf riyazi məntiqlə boykotdan hər hansı hüquqi nəticə əldə etmək olur. Əgər sübut olunarsa ki, ya referendum, ya da prezident seçkisinə 25 faizdən az insan gəlib, bu zaman hansısa formada, ən azı riyazi məntiqlə boykotu izah etmək olur. Amma bunu da doğru hesab etmirəm. Çünki siyasi partiyaların elə əsas işi seçkidə iştirak etməkdir.

Bələdiyyə və parlament seçkilərində isə hansısa bir baraj yoxdur. Tutaq ki, bir dairədə 45 min seçici var, orada 5 nəfər belə seçkiyə gəlsə, o seçki baş tutmuş sayılır. Əgər belədirsə, onu boykot etməyin nə mənası, anlamı, siyasi yükü, mesajı var? Ona görə də boykotçu siyasi partiyaları anlamaq mümkün deyil. Sadəcə, onlar öz zəifliyini, maddi və intellektual kasıblığını, vitrinə insan çıxara bilməmələri, kadr bazalarının zəif olduğunu etiraf etmirlər, bunun əvəzində yüksək pafosla boykota getdiklərini elan edirlər. Əslində bu boykot siyasi qərardan daha çox həmin partiyanın düşdüyü durumu ifadə edir".

**AĞ Partiya sədri, deputatlığa namizəd Tural Abbaslı isə qeyd edib:** "Qeydə alınan deputatlığa namizədlərin sayı ilə bağlı tam şəkildə nəsə demək olmur. Çünki proses davam edir və yəqin ki, say artacaq. Ehtimal ki, 125 yerə 1000-1200 namizəd olacaq ki, bu da ortalama hər dairədə bir yerə 10 namizədin olacağı anlamına gəlir və bu, heç də pis rəqəm sayılmır. Amma ümumilikdə götürdükdə, əvvəlki seçkilərlə müqayisədə bu dəfə namizəd kimi seçkidə iştirakçıların sayı kifayət qədər azdır. Amma bir daha qeyd edirəm ki, bir dairədən 10 nəfərin namizəd olması heç də pis deyil.

Hansısa partiya sədrlərinin seçkidə iştirak etməməsi, hər halda, onların öz daxili qərarlarıdır və bizim buna mövqe bildirməyimiz doğru olmaz. Amma düşünürəm ki, əgər əsaslı səbəb, istər şəxsi, istərsə də siyasi anlamda bir məntiqli izahı yoxdursa, hər partiya sədri öz komandasını seçkiyə özü aparmalıdır. Yəni özünün rəhbərlik etdiyi siyahı olmalı və siyahının da birinci nömrəsində özü olmalıdır ki, namizəd kimi digər partiya üzvlərinə həm stimul olsun, həm də komanda görüntüsü yaratsın. Hər halda, general komandanın başında olsa daha yaxşı olar. Əgər seçkiyə inanmırsansa, niyə partiya üzvlərini göndərirsən, yox, əgər inanırsansa, özün niyə getmirsən? Yəni bir daha qeyd edirəm ki, bu məsələnin bir məntiqli əsası yoxdursa, hər partiya sədrinin seçkidə iştirakı daha doğru olardı. Ümumiyyətlə, Azərbaycanda ümumi seçicilərin 25-50 faizi seçkidə iştirak etdikdə seçki baş tutmuş sayılır. Yəni bu baxımdan boykotun heç bir hüquqi əsası yoxdur.

Siyasi anlamda boykot edəndə isə cəmiyyətin və yaxud beynəlxalq aləmin nəzdində bu seçkilərin legitimliyinin şübhə altına düşmə təhlükəsi ola bilir, amma Azərbaycan təcrübəsində baxanda görürük ki, bu da yoxdur. Çünki illərlə Azərbaycan daxilində siyasi partiyaların boykot etdiyi prezident seçkilərinin nəticəsində seçilmiş prezident nə daxildə, nə də xaricdə legitimlik problemi yaşamayıb. Demək ki, bu, siyasi anlamda da heç bir məna kəsb etmir. Burada yalnız əks-arqument ola bilər ki, seçkinin nəticəsi yoxdur, gedib iştirak etməyin nə mənası var, amma iştirak etməməyin də heç bir mənası qalmır. Çünki iştirak edəndə istər-istəməz bu prosesin içində olursan, bu və ya digər formada təsir etməyə cəhd göstərirsən. Lakin iştirak etməyəndə tam bu prosesdən kənarda qalırsan və heç bir müdaxilə imkanların olmur.

Ona görə də mən boykotun əleyhinəyəm və boykot edənləri də anlamıram, bunu yanlış qərar hesab edirəm. Konstitusiyada da qeyd olunub ki, hakimiyyətə gəlməyin yeganə yolu seçkilərdir".

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

## İki deputat qərarını elan etdi



İltizam Yusifov



Etibar Əliyev

**VI çağırış Milli Məclisin bitərəf deputatı İltizam Yusifov sentyabrın 1-də keçiriləcək növbədənkənar parlament seçkilərində namizədliyini irəli sürməyib.**

Bu barədə Modern.az-ın sorğusuna cavab olaraq deputatın köməkçisi məlumat verib. Qeyd edək ki, **İltizam Yusifov** 2020-ci ildə keçirilən parlament seçkilərində 46 saylı Şirvan seçki dairəsindən deputat seçilib.

O, Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin üzvü, Azərbaycan-Norveç parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Birləşmiş Ərəb Əmirlikləri, Çexiya, Xorvatiya, İsveç, Meksika, Serbiya, Türkiyə, Vyetnam parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının, MDB-nin Parlamentlərarası Assambleyasında, Avronest Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətlərinin, Avropa İttifaqı-Azərbaycan parlament əməkdaşlığı komitəsinin üzvüdür.

**VI çağırış Milli Məclisin deputatı Etibar Əliyev də sentyabrın 1-də keçiriləcək növbədənkənar parlament seçkilərində iştirak etməyəcək. O vurğulayıb ki, namizədliyini könüllü olaraq irəli sürməyib:** "Biz böyük Zəfər qazanmışıq və hər kəsin üzərinə çalışdığı sahədən asılı olmayaraq böyük məsuliyyət düşür. Mən öz üzərimə düşən məsuliyyətimi dərk edən adamam. Mənim əzəldən missiyam maarifçiliyin təbliğidir və bu istiqamətdə işlərimi daha intensiv şəkildə davam etdirəcəyəm. Bu seçkidə bütün layiqli namizədlərə uğurlar arzulayıram. Seçkidə səsimi ən layiqli namizədə verəcəyəm. Düşünürəm ki, VII çağırışın deputatları VI çağırışın deputatları kimi ölkəmizin inkişafı naminə mühüm qanunların qəbul olunmasında fəal iştirak edəcəklər. Bununla yanaşı, onların ölkəmizin ictimai-siyasi həyatında fəal iştirakı barədə gözləntilərim böyükdür".

Qeyd edək ki, Etibar Əliyev 2020-ci ildə 31 saylı Suraxanı ikinci seçki dairəsindən deputat seçilib. O, VI çağırış Milli Məclisin Gənclər və idman komitəsinin, Elm və təhsil komitəsinin üzvü, Azərbaycan-Albaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Belarus, Finlandiya, İsveç, Qazaxıstan, Norveç parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvü olub.

❑ **"Yeni Müsavat"**

MÜSAVAT
N 138 (8511) 7 avqust 2024



# Rezin qayıqdakı iraqlı

Zamin HACI
zaminhaci@gmail.com

**İki nəfər vətəndaşımız tərcüməsi "Sərhəddən qırağa get" kimi mənalı ad daşıyan şirkət qayırmışlar, sonra zəhmətkeşlərimizə qarşı dələduzluq etmişlər. Sitat: "Ərşad Quluyev və Sevinc Aslanova iş üçün onlara müraciət edən şəxslərə Almaniya, Niderland, Britaniya və s. ölkələrdə iş, eləcə də viza ilə təmin edəcəklərinə dair yalan vədlər verərək 100-ə yaxın şəxsi dələduzluq yolu ilə aldadıblar. Zərərçəkənlərin hər birindən 1000-2000 manat aralığında müxtəlif məbləğlərdə pul vəsaitləri alınıb. Faktlarla bağlı Nəsimi RPİ-nin İstintaq Şöbəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb və onlar təqsirləndirilən şəxs qismində istintaqa cəlb olunublar". Sitatın sonu.**

Açığı, mən bu xəbərə bir qədər şübhə ilə yanaşıram. Nəsə düzgün yazılmayıbdır. İşin içində iş var. (Təzə yanıltmac ağlıma gəldi, təklif edirəm dərsliyə salınsın: "İşin içində iş var, için işində iç var; İşləsən için açılar, iş üçün hər iş açılar"). Nəyə görə belə qənaətə gəlmişəm?

Birincisi, sərhədlərimiz koronavirus karantininə görə bağlıdır. Deməli, pul versən də gedə bilməzsən.

İkincisi, bizdə işsizlik varmı ki, əhali 2000 manat viza-miza pulu verib xaricdə iş axtarsın? Yalan söhbətdir. Bizdə rəsmi statistikaya görə işsizlik aradan qalxmışdır. Hələ əksinə, orada adıçəkilən dövlətlərdən: Almaniya, Niderland və Britaniyadan hər il nə qədər işsiz Azərbaycana qaçır, çiçəklənən respublikamızın iqtisadiyyatına qoşulurlar. Şəxsən mən bugünlərdə bir nəfər yoldaş, yaxın qahımla söhbət əsnasında öyrəndim ki, onun ev heyvanına fransız qulluq edir. Yay tətili üçün ana yurdumuza gəlmişdir, pişik Niderlandda qalıb, indi muzdla tutduğu bir fransız zəhmətkeş hər gün gedir bunun mənzilinə, pişiyə yemək verir. Allaha and olsun ki, söhbəti eşidəndə ürəyimiz açıldı. Hətta xeyli gülüşdük. Arzu edirəm sizin də üzünüz gülsün, ilahi, amin.

Bəli. Allaha min şükür olsun. Özümüzdə hər gün yüzlərlə müəssisə açılır, iş yerləri zibil kimidir. Ən azı öz səhmizdən deyə bilərəm ki, bizdə minimum 525 dənə qəzet vardır. Əks halda, niyə "525-ci qəzet" adlı orqan çıxır? Özümüzdən elə ad uydurmamışıq. Hamısı Ədliyyə Nazirliyinin qeydiyyat sənədlərində, dövlətin rəsmi kağızlarında təsdiqini tapan həqiqətlərdir. Bizim də borcumuz bu həqiqətləri dünya arenalarına yaymaqdır.

Yeri gəlmişkən, paltarlardakı inadkar ləkələri çıxarmaq üçün ağ sirkədən istifadə etmək olar. Paltaryuyan maşında zamanla əmələ gələn yuyucu toz qalıqlarını da ağ sirkə təmizləyir. Əlbəttə, mövzuya dəxli yox idi, lakin mətbuatın müqəddəs vəzifələrindən biri də maarifçilikdir. Zeytun turşusu hazırlamaq üçün potaş lazımdır.

Bundan başqa, Ağcabədidə bir qaldırıcı kran xarab imiş, əlaqədar orqanlar kranın qaldırıcı hissəsini möhürləmişdir. Bu vacib xəbəri də təzəlikcə milli mətbuatımızın səhifələrində oxuduq, aydınlandıq, maarifləndik. Kran hazırda yarımçıq vəziyyətdədir - harasa gedib-gəlir, lakin qaldıra bilmir. Xahiş edirik Ağcabədidə qaldırıcı kranla işi olacaq şəxslər gələcək həyat və yaradıcılıqlarında bu amili daim diqqətdə saxlasınlar.

Qayıdaq mühacirlər mövzusuna. Əcnəbilər bütün istiqamətlərdən vətənimizə soxulmağa can atırlar. Təkcə avropalılar, firənglər deyil ki. Təzəlikcə Xəzərin cənub sektorunda rezin qayıqda sərhəd pozucusu yaxalandı. Adam İraq vətəndaşı imiş. Gör yazıq hansı kökdədir... İraqdan Allah bilir hansı zülümlə İrana adlayıb, orada qayıq alıb, beş-üç əşyasını qayığa yükləyib, avar çəkərək Azərbaycana gəlməyə çalışıb. Anda olsun nəyə inanırsınızsa ona, mən o iraqlının hərbi sərhəd katerlərimiz, kreyser və freqatlarımız arasında sıxışdırılıb durdurulması mənzərəsini ürək ağrısı ilə izlədim. Həyatımda gördüyüm ən kədərli şəkillərdən biri idi. Bu yerdə Süleyman Rüstəmin məşhur misralarının yeridir: "Bəzənib başdan-başa şəhərləri, kəndləri, Cənnət görmək istəyən Azərbaycana gəlsin".

Ümumiyyətlə, Süleyman müəllimin belə maraqlı misraları, beytləri çox idi. Birində də belə yazırdı: "Məndən sənə nə desələr, inanma, ey gül, Səndən də gəlib gündə Süleymana deyirlər".

Yazını elə bu xoş ovqatla bitirmək istəyirəm. İndi söz əlaqədar təşkilatlarındır.




# Rus sərhədçiləri Kərki istiqamətini tərk etdi - yeni panika

## Ermənilər kəndin Azərbaycana təhvil veriləcəyindən qorxuya düşüblər; bu ərazinin strateji əhəmiyyəti və necə işğal edilməsi açıqlandı - analitiklərin rəyi

**Rusiya sərhədçiləri təkcə Zvartnotsdan deyil, Yerasxavan ərazisindən də çıxarılıb. Rus sərhədçilərinin Paruyr-Sevak kəndindəki bazası da ləğv edilib. "Yeni Müsavat" bildirir ki, bu barədə hraparak.am saytı yazıb.**

Nəşr xəbər yayıb ki, ruslar azərbaycanlıların ən azı Kərki və Arazdəyən istiqamətində hərbi əməliyyat keçirməmələrinə yeganə təminat idi. Erməni analitik Edqar Qazaryan isə ermənilərin bu məsələdən qorxuya düşdüyünü etiraf edib: "Belə çıxır ki, Rusiya sərhədçilərinin bazası bu ərazidən çıxarılarsa, Kərki və Arazdəyən artıq Azərbaycana verilməyəcək. Ancaq dolayısı yolla insanlara xəbərdarlıq edirlər ki, Arazdəyənin yaxınlığında yerləşən Naxçıvanda Azərbaycan Ordusunun tank birləşmələri var. Və onların yeganə döyüş missiyası İrəvan istiqamətində hücuma keçməkdir", - deyə o qeyd edib.

Lakin o da var ki, İrəvandakı "Zvartnots" hava limanında xidmətini başa çatdıran Rusiya sərhədçiləri Türkiyə və İranla sərhəddə xidmətə başlayıb. Bu barədə Ermənistanın Milli Təhlükəsizlik Xidməti məlumat yayıb. Bildirilib ki, bu addım 1992-ci ildə Rusiya ilə əldə edilən razılaşmaya uyğun olaraq atılıb. Yəni onlar Ermənistandan getməyiblər.

Həmçinin erməni mediası Naxçıvanın Kərki kəndinin işğal olunması ilə bağlı detalları açıqlayıb. Kərkinin işğalı haqda "Qarabağ komitəsi"nin üzvü, hazırda tarix elmləri doktoru olan Aleksan Akopyanın xatirələrindən sitat gətirilib. Bildirilib ki, Akopyan "məxfilik baxımından" xatirələrində bir çox məqama aydınlıq gətirməyib, ancaq Kərki adının işğaldan sonra niyə "Tiqranaşen"ə dəyişdirildiyini izah edib. Akopyanın xatirələrindən bəlli olur ki, Kərkinin strateji əhəmiyyətini dərk edən ermənilər bu kəndi ələ keçirmək üçün xüsusi əməliyyat hazırlayıblar. İddiaya görə, 1989-cu ilin yanvarında azərbaycanlıların özünümüdafiə dəstələri kəndi qorumağa çalışıb.

"Vazgen Sərkisyanın başçılıq etdiyi Araratdan olan dəstəmiz əməliyyat hazırlayıb, "Qarabağ komitəsi" ilə razılaşmış formada hücuma keçdi. Yanvarın 16-da bizim oğlanlar kəndə girib "bütün yaraqlıları" qovdular. Amma kənddə onların (azərbaycanlıların - red.) çevik polislərindən (Xüsusi Təyinatlı Milis Dəstəsi (OMON) nəzərdə tutulur - red.) əlavə, sovet daxili qoşunlarının kiçik bir qrupu da var idi. Onların xahişi ilə biz geri çəkildik. Kəndə hücum zamanı Armaş kəndindən olan Tiqranı qurban verdik. Ona görə kəndi alandan sonra adını Tiqranaşen qoyduq", - Akopyan yazıb. Onun sözlərinə görə, Sərkisyanın dəstəsi geri çəkiləndən sonra azərbaycanlılar Kərkini tərk ediblər: "Vazgen Sərkisyanın və onun silahdaşlarının böyük səyləri sayəsində Zəngəzura gedən yolu itirmək kimi real təhlükənin qarşısı alındı. Zəngəzura gedən yol Kərkidən atəşə tutulurdu".

İndi isə kəndin Azərbaycanın nəzarətinə keçəcəyi barədə ermənilərdə panika və təşviş yaranmağa başlayıb. Rusların bu əraziləri tərk etməsini kəndin Azərbaycana təhvil veriləcəyi kimi qiymətləndirilir. Ümumiyyətlə, Kərki və Qazağın anklav olan digər üç kəndi də qaytarılmalıdır. Hazırda sülh danışıqları davam edir və tərəflər anklav ərazilərin həlli məsələsini sonraya saxlayıblar. Onu da demək lazımdır ki, Kərki ermənilər üçün İrana gedən yolda strateji əhəmiyyət daşıyır. Əgər kənd bizim nəzarətimizə keçərsə, o zaman ermənilər İran yolunda dəyişiklik etməli olacaqlar. Necə ki, Tavuş istiqamətində delimitasiya zamanı bir körpü Azərbaycanda qaldı və bu səbəbdən ermənilər Gürcüstana getmək üçün alternativ yol çəkdilər. Yeri gəlmişkən, erməni mediası bugünlərdə həmin yoldan görüntülər yaymışdı. İndi də eynilə Kərki ilə bağlı oxşar mənzərə yarana bilər. Bu kəndin qaytarılması Azərbaycan üçün də olduqca vacibdir.

Onu da deyək ki, Ermənistan hökuməti Qarabağdan köçən ermənilərin sərhəd ərazilərində yerləşdirilməsi üçün mənzil proqramlarının siyahısının təsdiqi və maliyyələşdirilməsi barədə qərar qəbul edib. Təsdiq edilmiş kənd və qəsəbələr siyahısında olmayan yeganə kənd Kərkidir. Bildirilib ki, bu, Ermənistan hökumətinin Kərkini tezliklə geri qaytarmağa hazırlaşması ilə bağlıdır. Paşinyan ölkəsinin 29,743 kv.km ərazisinə Kərki və Tavuşdakı anklavların daxil olmadığını dəfələrlə elan edib.

Qeyd edək ki, Naxçıvan Əlahiddə Ümumqoşun Ordu Komandanı general-mayor Kənan Seyidov təyin edilib. Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları 2018-ci ildə uğurlu Günnüt əməliyyatında və 2020-ci ildə Vətən müharibəsində iştirak edərək torpaqlarımızın azad olunmasında şücaət göstəriblər. General-mayor Kənan Seyidov uzun illər Xüsusi Təyinatlı Qüvvələrdə xidmət edib. Xüsusi Təyinatlı Qüvvələr Komandanının birinci müavini - Qərargah rəisi vəzifəsinə təyin olunub. 2020-ci il sentyabrın 27-də başlanan hərbi əməliyyatlar zamanı fərqlənib. Prezidentin sərəncamı ilə Vətən Müharibəsi Qəhrəmanı adı ilə təltif edilib, general-mayor ali hərbi rütbəsinin verilib. 23 iyun 2021-ci ildə Xüsusi Təyinatlı Qüvvələr Komandanının birinci müavini - Qərargah rəisi vəzifəsindən azad edilib və 5-ci Ordu Korpusunun Komandiri vəzifəsinə təyin edilib. Kabinet generalı Kərəm Mustafayevin yerinə müharibənin od-alovun çıxmış birinin təyinatı şübhəsiz ki, ermənilərin son vaxtlar Naxçıvan istiqamətində fəallaşması ilə də əlaqədar olduğunu deyənlər var. İndi rus sərhədçilərin o istiqamətdən çıxması ermənilərin narahatlıqlarını artırıb...

**Bu mövzuda "Yeni Müsavat"a danışan hərbi ekspert Ramil Məmmədlinin sözlərinə görə, rus sərhədçilərinin ərazidən çıxması rotasiya ola bilər. Onun fikrincə, Ermənistanda olan rus hərbçiləri vaxtaşırı yerdəyişmələr edirlər. R.Məmmədli hazırda Kərkinin təhvil verilməsi üçün danışıqlar aparılmadığını deyir:** "Kərkidə az sayda insan yaşayır və Ermənistan bu kəndlə bağlı şişirtməyə yol verir. Ona görə vaxtı çatanda Kərkini də alacağıq və hay-küy qoparmaları əhəmiyyətsiz olacaq. Amma hazırda rus hərbçiləri İranla sərhədə nəzarət edirlər. Ola bilsin ki, bəzi ərazilərdə bazaları ləğv olunub. Ancaq rusların gedişi kəndin qaytarılacağı kimi qəbul oluna bilməz. Bunun üçün gərək Ermənistanla Azərbaycan konkret razılaşmalar əldə etsinlər. Eyni zamanda erməni tərəfi son günlər Kərki ilə bağlı referendum manipulyasiyaları edirlər. Hər halda, bu kənd azad edilməlidir və Azərbaycanın ərazi bütövlüyünə daxil olmalıdır. Sözsüz ki, bundan sonra orada rus yox, azərbaycanlı sərhədçilər dayanacaqlar. Yeni ruslar indi Kərkidən çıxırsa, o zaman gələcəkdə orada Azərbaycan Dövlət Sərhəd Xidməti olacaq".

**Hərbi ekspert hesab edir ki, anklavların qaytarılması müzakirələr nəticəsində reallaşa bilər:** "Ermənistan isə gah anklavların qarşılıqlı mübadiləsindən dəm vurur, gah referendum keçirib xalqın rəyinin öyrənilməsindən danışır. Hiss olunur ki, İrəvan vaxt udmaq niyyətindədir. Ancaq sülh mətni razılaşdırılarkən bu kəndlər də müqavilədə qeyd olunmalıdır. Məncə, Kərki və Qazağın digər üç kəndinin Azərbaycana təhvil verilməsi sülh müqaviləsi mətnində yer ala bilər. Çünki söhbət iki ölkənin bir-birinin ərazi bütövlüyünü qarşılıqlı şəkildə sənəddə tanımasından gedir. Həmin kəndlər isə anklav olsalar belə, faktiki işğaldadır və Ermənistanın nəzarətində qala bilməzlər. O baxımdan məsələnin həll variantı sülh müqaviləsində öz əksini tapa bilər. Bu halda delimitasiya işi aparılır və sərhəd dəqiqləşir. Ondan sonra rus sərhədçiləri Kərkidə ola bilməzlər, gedib Ermənistanın başqa ərazisində keşik çəksinlər. Əminəm ki, Azərbaycan dövləti diplomatik danışıqlarda bu məsələni ciddi surətdə gündəlikdə saxlayır".

**❑ Emil SALAMOĞLU, "Yeni Müsavat"**

# “Putin ittifaqı”na yeni təhlükə

## Ermənistan KTMT-nin daha iki təlimini boykot edir, Paşinyan anti-Rusiya ritorikasını gücləndirir - İrəvanı nə gözləyir?

**Rəsmi İrəvan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) qarşıdakı iki təlimində Ermənistanın iştirak etməyəcəyi barədə qurumun üzvlərinə xəbərdarlıq göndərib.**

“Yeni Müsavat” xəbər verir ki, bu təlimlərdən birincisi - “Kobalt-2024" Rusiya Milli Qvardiyasının (RMQ) rəhbərliyi ilə avqustun 14-dən 16-dək Novosibirskdə keçiriləcək.

RMQ-nin mətbuat xidmətinin açıqlamasına görə, təlimlərdə Rusiya, Belarus, Qazaxıstan, Tacikistan və Qırğızıstanın nazirlik və idarələrinin nümayəndələri iştirak edəcək.

“İştirakçılar KTMT-nin kollektiv çevik reaksiya qüvvələrinə daxil olan bölmələr arasında təcrübə mübadiləsi aparacaq, xüsusi təyinatlılar tərəfindən qanunsuz silahlı birləşmələrin axtarışı, aşkarlanması və məhv edilməsi üzrə praktiki bacarıqlar qazanacaqlar. Onlar həmçinin aviasiyadan və PUA-lardan istifadə etməklə binaya və nəqliyyata hücum, girovların azad olunması və yaraqlıların zərərsizləşdirilməsi təcrübəsini də sınaqdan keçirəcəklər”, - bəyanatda deyilir.

KTMT-nin “Qarşılıqlı fəaliyyət-2024" adlı daha bir təlimi isə sentyabrın 3-15 Qırğızıstanda keçiriləcək. Bu təlimlərdə də Ermənistandan başqa təşkilata daxil olan bütün ölkələrin hərbçiləri iştirak edəcək.

KTMT-dən verilən məlumata görə, bu təlimlər Mərkəzi Asiya regionunda silahlı münaqişənin həlli üzrə birgə əməliyyatın hazırlanmasına yönəldiləcək.

“Ermənistan tərəfi təlimlərdə iştirak etməyi planlaşdırmadığını açıqlayıb”, - məlumatda qeyd olunub.

Qeyd edək ki, bu ilin fevralında Ermənistanın baş naziri Nikol Paşinyan ölkənin KTMT-də iştirakının dondurulduğunu bildirib. Ermənistan hakimiyyəti 2024-cü ildə KTMT-nin büdcəsinə üzvlük haqqı verməkdən də imtina edib.



Bununla artıq neçənci KTMT toplantısıdır ki, Ermənistan üzv ölkə kimi iştirakdan yayınır. Belə desək, de-fakto Ermənistan "Putin NATO-su"nu tərk edib, de-yure ayrılması qalır. Bütövlükdə isə baş nazir Nikol Paşinyan KTMT və Rusiya ilə bağlı ritorikalarını yenidən artırıb. Bununla paralel Qərblə yaxınlaşmaq üçün rəsmi İrəvan yeni cəhdlər edir. Yada salaq ki, ötən həftə Rusiya FTX Sərhəd Xidmətinin nümayəndələri Zvartnots keçid məntəqəsində dövlət sərhədinin mühafizəsi funksiyalarını Ermənistan tərəfinə təhvil veriblər. Rusiya sərhədçiləri Rusiya ilə Ermənistan arasında 1992-ci il 30 sentyabr tarixli müqavilənin Ermənistan ərazisində Rusiya sərhəd qoşunlarının statusunu və onların maraqları naminə fəaliyyət göstərmə şərtlərini müəyyən edən 8-ci maddəsinə uyğun olaraq yerləşdirilib.

Eyni zamanda Rusiya bəyan edib ki, Rusiya FTX-nin Ermənistandakı sərhəd idarəsi Zvartnots hava keçid məntəqəsində Ermənistan Respublikasının dövlət sərhədinin mühafizəsini təmin etmək funksiyasını rəsmən dayandırıb. Müşahidələr göstərir ki, Rusiya Ermənistanın qeyri-dost açıqlamalarına və addımlarına soyuqqanlılıq göstərir. Xüsusən də Paşinyanın KTMT-dən yaxın zamanda çıxacaqları barədə bəyanatına rəsmi Moskva ciddi reaksiya verməmdi. Əgər hadisələr bu cür inkişaf edərsə və Ermənistan KTMT-dən çıxmaq barədə qəti qərar verərsə, o zaman Paşinyan özünü güllə qabağına atmış olacaq. Hazırda bu məsələ ilə bağlı bir çox suallar açıq qalır. Amma dəqiq bilinən bir məsələ var ki, əgər Ermənistan KTMT-dən çıxsa və Rusiya ilə hərbi əməkdaşlığı dayandırsa, onda bu, Paşinyanın faciəvi siyasi sonu ola bilər. Və bu gedişlə Ermənistanın Avrasiya İqtisadi Birliyindən də uzaqlaşması istisna deyil.

“Yeni Müsavat”a fikirlərini bölüşən **professor Qabil Hüseynli** Ermənistanın Rusiyaya sanksiyalardan yayınmaqda kömək etdiyini bildirir. Onun sözlərinə görə, belə şəraitdə Paşinyan “ayağına güllə sıxaraq” Rusiya və Avrasiya İqtisadi İttifaqı ilə yollarını ayırmaz: “Ermənistanla Rusiyanın ticarət dövriyyəsi ötən illə müqayisədə artıb. Üzdə didişən tərəflər merkantil məsələlərdə yaxşı dil tapırlar. Ermənistan Rusiyanın patronajlığı altında fəaliyyət göstərən KTMT-nin əleyhinə addımlarını sürətləndirməklə yanaşı, iqtisadi sferada Moskva ilə münasibətlərdə səhv etməməyə çalışır. Üstəgəl, Avrasiya İqtisadi Birliyi o dərəcədə funksionallığını saxlamasa da, Ermənistan bu platformadan uzaqlaşacağı haqda istəyini heç zaman dilə gətirməyib. Çünki hələlik Rusiyadan iqtisadi asılılıq yüksək səviyyədədir. Ancaq təhlükəsizlik sahəsində Qərbdən ona vədlər verilir və Paşinyan ruhlanaraq KTMT-yə ittihamları artırır”.

**Q.Hüseynlinin bildirdiyinə görə, Ermənistan KTMT-də olan Belarusla əlaqələrini tam korlayıb, amma tərəflər AİI-də təmsil olunurlar:** “İrəvan elan edib ki, Lukaşenko hakimiyyətdə olduğu qədər Belarusla münasibətlər qurulmayacaq. Ancaq Avrasiya İqtisadi Birliyində üz-üzə gələcəklər. Bu baxımdan Ermənistanın strateji addımları daban-dabana ziddir: həm rus təsirindən qopmaq istəyir, həm qopmamaq üçün addımlar atır. Sadəcə, "iki stul" siyasəti çox davam edə bilməz. Paşinyan gec-tez bunun cəzasını çəkə bilər. Çünki seçim etməlidir: ya Qərb, ya Rusiya. Ermənistanın öhdəlikləri, Rusiya ilə müqavilələri, üzv olduğu platformalar var, yəni bu ölkə Gürcüstan, Azərbaycan deyil".

**Siyasi şərhçi Ramiyə Məmmədova isə hesab edir ki, KTMT təlimlərini boykot etməklə Ermənistan Rusiyadan üz döndərdiyini nümayiş etdirir:** “Paşinyan hiylədir və erməni xalqında Rusiyaya qarşı nifrəti gücləndirir. Demək istəyir ki, ruslar bizə müttəfiq olmadılar, arxa çevirdilər, indi niyə onlarla eyni təşkilatda iştirak edək?! Halbuki Rusiyanın münaqişəyə birbaşa müdaxilə etmək hüququ yox idi. Əgər Ermənistan ərazilərində hərbi əməliyyatlar getsəydi, KTMT qarışardı. Bütün narazılıqlar bu prosesdən başlanıb və əslində Paşinyan Qərbin təlimatlarını yerinə yetirərək rus orbitindən uzaqlaşmaq üçün bu bəhanələri uydurur. Onsuz da ona verilən tapşırıq ölkədə Rusiyanın hərbi mövcudluğuna azaltmaqdır. Ona görə amerikalılarla birgə hərbi təlimlər keçirirlər, amma Novosibirskdəki təlimdə iştirak etmirlər. Bu, açıq-aydın verilən siqnaldır”.

**Rusiyalı hərbi ekspert, ehtiyatda olan polkovnik Viktor Baranets isə hesab edir ki, Paşinyan hazırda KTMT-dən çıxmaq kursu götürüb:** “Mən sizinlə diplomatik dillə danışmayacam. Ermənistan özü Rusiyadan ayrılır. Erməni xalqı Rusiyadan üz çevirmir, bunu edən rəhbərlikdir, onu isə ABŞ məcbur edir. Rusiyadan uzaqlaşma ABŞ-ın qızıl arzusudur. Bir sözlə, Moskva və Vaşinqton arasında Ermənistan uğrunda böyük mübarizə gedir. Hazırda ABŞ ciddi inkişaf edib. Ermənistandan getmək isə bizə böyük bədbəxtliklər vəd edir. Başa düşürsünüz ki, əvvəl-axır amerikalılar Paşinyandan bizim hərbi bazamızı çıxarmasını istəyəcəklər?! Bəs bundan sonra nə olacaq? Mən aydın görürəm ki, İrəvan və Moskva münasibətləri bu ssenari üzrə inkişaf etsə, erməni xalqını böyük tarixi faciə gözləyir”.

❑ **Emil SALAMOĞLU,**
**“Yeni Müsavat”**

# İran İsrailə cavab verəcək, amma...

## Politoloq: “Tehranın bundan artığını həyata keçirməyə gücü və qüdrəti yoxdur”

**İranda yeni seçilmiş prezident Məsud Pezeşkianın andiçmə mərasiminə gələn Fələstinin HƏMAS hərəkatının Siyasi Bürosunun rəhbəri İsmayıl Haniyənin Tehranda qətlə yetirilməsi ilə Yaxın Şərqdə daha da gərginləşən vəziyyət öz aktuallığını qorumaqdadır. Haniyənin Tehranda qətlində İsraili günahlandıran İran rejimi “qisas” vədi verib. Beynəlxalq medianın məlumatına görə, İranın ali dini rəhbəri Seyid Əli Xameneİ İsrailə zərbə endirmək barədə göstəriş verib. Yaxın sutkalar ərzində İranın İsraili raket atəşinə tutacağı qənaətləri güclənir.**



Yeri gəlmişkən, İsrail rəhbərliyi Tehrandan hücum qaçılmaz olarsa, İrana qarşı qabaqlayıcı zərbə endirmək imkanını nəzərdən keçirir.

Analitiklər hesab edir ki, Haniyənin Tehranda öldürülməsi İranın imicinə zərbə və dövlətin aşağılanması anlamını verir. Ona görə də İranın cavab zərbəsi endirəcəyi gözlənilən. Amma o da bildirilir ki, bunun genişmiqyaslı müharibə ilə nəticələnəcəyi şübhə doğurur.

Mövzu ilə bağlı Ayna.az-ın suallarını cavablandıran **“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu** deyib ki, ilk dəfə deyil ki, İran rejimini bu cür aşağılayırlar: "Son 15 ildə İranın bir neçə nüvə alimi İsrail kəşfiyyatı tərəfindən İran ərazisində aradan götürülüb. İsrail kəşfiyyatının belə bir ənənəsi var ki, bu cür əməliyyatları nə təsdiq, nə də təkzib edir. Hamı bilir ki, bu əməliyyatları İsrail kəşfiyyatı həyata keçirir. Məsələ burasındadır ki, İranda real gücə malik İsrail casus şəbəkəsi var. İndi İran intiqam vədi verir. Bu vədlərini biz əvvəl də eşitmişik. Məsələn, İranın əfsanəvi generalı Qasım Süleymani İraq ərazisində nümayişkaranə şəkildə ABŞ tərəfindən öldürüldü. O zaman İranda “qırmızı bayraq” qaldırıldı, “intiqam” sözü verildi. Sonra nə baş verdi? İraqdakı ABŞ hərbi bazasına İran tərəfindən bir neçə raket zərbəsi endirildi, amma bir amerikalı əsgərin burnu belə qanamadı".

**Politoloq düşünür ki, İran ola bilsin, cavab verəcək, amma əvvəlkilərdən fərqli cavab olmayacaq:** “Yəqin ki, raketlərlə İsraili vurmağa çalışacaqlar, İsrail isə özü və tərəfdaşları vasitəsilə bu raketləri zərərsizləşdirəcək. Eyni zamanda İran HƏMAS və Hizbullahın vasitəsilə İsrailə qarşı terror aktı törədəcək. Demək olar ki, əvvəl gördüklərimizdən fərqli intiqam aksiyasının həyata keçiriləcəyinə inanmıram. Çünki İranın daha çoxuna gücü də yoxdur”.

**“Regional müharibə riski nə qədərdir” sualına gəlincə, E.Şahinoğluna görə, İran müharibədə maraqlı deyil və müharibə aparmağa gücü də yoxdur:** “Ona görə də İran əvvəlkilər kimi İsrailə cavab zərbəsi endirəcək. Hansı ki, bu, İsrailə təsir etmir. İranın bundan artığını həyata keçirməyə gücü və qüdrəti yoxdur.

Ümumiyyətlə, İran hər zaman müharibəni proksi qüvvələrinin - Hizbullah, HƏMAS kimi təsiri olan qüvvələr vasitəsilə kənarda aparmağın tərəfdarıdır. İran istəmir ki, müharibə ərazisinə keçsin. Çünki bu müharibənin nəticəsinin İran üçün fəlakətli olacağını Tehrandakılar yaxşı dərk edirlər. Ona görə də genişmiqyaslı müharibə gözlənilmir. Regional müharibə İranın birbaşa qoşulması ilə baş verər ki, dediyim kimi, İran bunda maraqlı deyil".

❑ **“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 138 (8511) 7 avqust 2024

## İyulda 754 nəfərin diplomu tanınıb



**İyul ayı üzrə müraciət edən 937 nəfərin 754-ü barədə müsbət qərar verilərək müvafiq şəhadətnamələr təqdim olunub, 183 şəxsin müraciəti isə mənfi qərarla yekunlaşıb.**

Bu barədə Təhsildə Keyfiyyət Təminatı Agentliyi məlumat yayıb.

Bildirilib ki, tədris yükünü mənimsəmək üçün təhsil aldığı ölkənin ərazisində tələb edilən normativdən az olması səbəbi ilə 142, əczaçılıq ixtisası üzrə qiyabi formada təhsil alınması səbəbi ilə 17, təhsil forması səbəbi ilə 8, dövlət nümunəli olmayan diplom səbəbi ilə 6, akkreditasiyasız ali təhsil müəssisəsi və sərhəd xidmətinin məlumatı səbəbi ilə 3, akkreditasiyasız ali təhsil müəssisəsi səbəbi ilə 2, bakalavr diplomu üzrə mənfi qərar verilməsi səbəbi ilə 2, ekvivalenti olmayan ixtisas səbəbi ilə 2, baza təhsili diplomu olmadan magistratura təhsili alınması səbəbi ilə 1 nəfərin müraciəti mənfi qərarla yekunlaşıb.

Ölkələr üzrə müraciətlərin sayına nəzər saldıqda Türkiyədən 346, Rusiyadan 308, Ukraynadan 114, Gürcüstandan 59, Birləşmiş Krallıqdan 16, İtaliyadan 11, Macarıstandan 9, Amerika Birləşmiş Ştatlarından 7, Qazaxıstandan 7, Polşadan 6, Almaniyadan 5, Belarusdan Respublikasından 5, Çexiyadan 4, Çin Xalq Respublikasından 4, Litvadan 4, Niderland Krallığından 4, Pakistandan 4, Belçika Krallığından 3, Estoniyadan 3, Latviyadan 3, Fransadan 2, Koreyadan 2, Avstriyadan 1, Bolqarıstandan 1, Əfqanıstandan 1, İspaniya Krallığından 1, İsveç Krallığından 1, Kanadadan 1, Norveç Krallığından 1, Özbəkistandan 1, Qambiyadan 1, Səudiyyə Ərəbistanı Krallığından 1, Sinqapurdan 1 müraciətin olduğu müşahidə edilir.

Ən çox müraciət olunan ixtisaslara gəlincə, tibb üzrə 153, biznesin idarə edilməsi üzrə 71, iqtisadiyyat üzrə 64, maliyyə üzrə 54, stomatologiya üzrə 37 müraciət qeydə alınıb.

## Türkiyə-Azərbaycan Universiteti bu binada fəaliyyət göstərəcək

**2024-2025-ci tədris ilində Türkiyə-Azərbaycan Universitetinə (TAU) tələbə qəbulu aparılacaq. Abituriyentlər TAU-nun tədris ingilis dilində aparılacaq ixtisaslarını (kompüter mühəndisliyi, sənaye mühəndisliyi, qida mühəndisliyi) seçə bilərlər. Universitetin yerləşəcəyi bina hələlik rəsmi olaraq açıqlanmayıb.**

Məlumata görə, ali təhsil ocağının binası Bakının Xətai rayonunda yerləşəcək.

Bildirilir ki, TAU Bakı Ali Neft Məktəbinin (BANM) Xocalı prospektində yerləşən binasında fəaliyyət göstərəcək. Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi saytımıza açıqlamasında məlumatı təsdiqləyib. "Universitetin BANM-in əvvəlki binasında fəaliyyətə başlayacağı doğrudur", - açıqlamada deyilir.

BANM-in isə 2024/2025-ci tədris ilində bu il ləğv edilən Bakı Fransız Liseyinin binasında fəaliyyət göstərəcəyi qeyd olunur.

# Varlıların Bakıda iki özəl məktəbi bağlanıb - təhsildə geriləmə...

## Ekspert: "Özəl məktəb yaradanlar daha çox gəlir götürməyi düşünür, ona görə..."

**Bakının Səbayel rayonu Badamdar qəsəbəsində yerləşən məşhur Bakı Oksford Məktəbi müsadirə edilib, binası isə satışa çıxarılıb. Binanın ilkin satış qiyməti 24.7 milyon manatdır.**

Bununla bağlı Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən 27 avqust 2024-cü il tarixdə hərrac keçiriləcək.

Qeyd edək ki, Bakı Oksford Məktəbi həbsdə olan iş adamı Rasim Məmmədovun həyat yoldaşı Mehriban Məmmədovaya məxsus olub. R.Məmmədov özü də uzun illər "Baku Steel Company"nin rəhbəri olub. 185 milyon manatlıq yeyintidə təqsirli bilinən Rasim Məmmədov 14 il müddətə azadlıqdan məhrum edilib.

Cinayət işində o da qeyd edilir ki, Bakı Oksford Məktəbi onun cinayət yolu ilə əldə etdiyi pulla tikilib. Bu səbəbdən məktəbin binası Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə müsadirə edilib.

Xatırladaq ki, bina 2014-cü ildə istifadəyə verilib. Bakı Oksford Məktəbi Bakıda ən bahalı özəl məktəblərdən sayılırdı. Burada təhsil ingilis dilində idi və əsasən imkanlı şəxslərin övladlarının oxuduğu məktəb kimi tanınırdı.



Yada salaq ki, bu ilin iyul ayında Bakı Fransız Liseyi(BFL) də fəaliyyətini dayandırıb. Buna əsas səbəb kimi 10 illik fəaliyyəti ərzində BFL-in şagird sayının fəaliyyət planında nəzərdə tutulan saydan əsaslı şəkildə aşağı olması, saxlanma xərcləri ilə bağlı çətinliklər, habelə fəaliyyətin iqtisadi cəhətdən səmərəli olmamasıdır. Belə ki, 320 şagird üçün nəzərdə tutulan məktəb bu illər ərzində təsisçi tərəfindən təyin edilən hədəfə çatmayıb, 200 nəfərlik baryeri (60%) keçə bilməyib, bu isə öz növbəsində məktəbin rentabelliyinə ciddi şəkildə təsir göstərib. Qeyd olunanları nəzərə alaraq cari vəziyyətdə BFL-in bundan sonrakı fəaliyyətini davam etdirməsi təsisçi tərəfindən mümkünsüz hesab edilib.

Hər iki məktəbdə əsasən imkanlı və varlı ailələrin övladları oxusa da, özəl təhsil ocaqlarının bağlanması təhsilin inkişafını ləngidən prosesdir. Baxmayaraq ki, hər iki məktəbin fəaliyyətinin dayandırılması üçün əsaslı səbəblər var. Bəs paytaxtda ikidilli (ingilis və fransız) tanınmış təhsil ocağının fəaliyyətini dayandırması təhsilə hansı mənfi təsirləri ola bilər?

**Mövzu ilə bağlı təhsil eksperti Kamran Əsədov "Yeni Müsavat"a deyib ki, "Təhsil haqqında" Qanun Azərbaycanda mülkiyyət növünə görə dövlət, bələdiyyə və özəl təhsil müəssisələrinin fəaliyyətinə icazə verir:** "Ancaq ölkəmizdə indiyədək yalnız özəl orta məktəblər yaradılıb. Bələdiyyə məktəblərinin yaradılması məsələsi dəfələrlə gündəmə gətirilsə də, bugunədək reallaşmayıb. Dövlət Statistika Komitəsinin məlumatları əsasında deyim ki, hazırda Azərbaycanda 2023-2024-cü dərs ilində fəaliyyət göstərən dövlət və özəl əyani ümumi təhsil müəssisələrinin sayı 4500-ə qədər olub. Onlardan 346-sı ibtidai, 830-u ümumi orta, 3312-si isə tam orta ümumi təhsil müəssisəsidir. Liseylərin sayı 85, gimnaziyaların sayı isə 15-dir. Eyni zamanda sağlamlıq imkanları məhdud uşaqlar üçün 17 xüsusi və internat məktəbi fəaliyyət göstərir.

Amma dövlət məktəbləri büdcədən asılı olduğu üçün o qədər də sürətlə inkişaf də bilmir. Xatırladım ki, özəl təhsil müəssisələrinin əhatəliliyi bu gün 1 faizdən aşağıdır. Burada təhsil alanların sayı da dövlət orta məktəbləri ilə müqayisədə dəfələrlə aşağıdır. Hazırda özəl məktəblərdə təhsil alan şagirdlərin ümumi sayı isə 1489-dur. Bu, digər ölkələrlə müqayisədə çox aşağıdır. Qardaş Türkiyədə təkcə İstanbulda 7 min orta məktəbdən 3500-ü özəldir. Bu, həm büdcə asılılığını azaldır, həm də təhsil müəssisələri arasında rəqabət mühiti formalaşdırır".

Ekspert əlavə edib ki, dünyanın inkişaf etmiş bütün ölkələrində vəziyyət oxşardır: "Amma ölkəmizdə özəl orta məktəblərin təhsil haqqı hədsiz dərəcədə yüksəkdir. Bu da əlçatımlılığının qarşısını alır.

Ölkəmizdə özəl orta məktəblərin problemi təkcə təhsil haqqının yüksək olması deyil, burada digər problemlər də var. Belə ki, müxtəlif özəl məktəblər var ki, heç fəaliyyəti cəmiyyətə bəlli deyil, ingilis və ya başqa xarici dilli məktəb olaraq əcnəbi adda fəaliyyət göstərirlər. Səfirliklər öz əməkdaşları üçün məktəb aça, kadrları da, məktəb də həmin dövlətin dilində fəaliyyət göstərə bilər. Həmin məktəblərdə ölkəmizin tarixi, coğrafiyası, dili də öyrədilməlidir. Digər tərəfdən, Azərbaycanın təşkil etdiyi məktəblər əsasən milli kadrlardan ibarət olmalı, öyrədilən biliklər öz dövlətimizin standartına, tərbiyə aspekti isə milli-mənəvi dəyərlərimizə əsaslanmalıdır. Təəssüf ki, bir sıra orta məktəblər var, xaricdən mütəxəssislər dəvət olunur, dərs proqramı xaricdən gətirilir, tərbiyə aspekti milli dəyərlərimizdən kənar olur.

Dünya təcrübəsi ilə bağlı başqa bir məqamı da qeyd edim ki, əslində Qərb ölkələrində bir çox özəl orta məktəblərdə uğurla təhsil alan tələbələr üçün qrantlar və adlı təqaüdlər sistemi nəzərdə tutulur. Bu, valideynlərin çəkdiyi ilkin xərcləri əhəmiyyətli dərəcədə kompensasiya edə bilir. Ayrı-ayrı hallarda özəl məktəbin müdiriyyəti istedadlı uşaqları qismən ödəniş müqabilində və ya təmənnasız olaraq məktəbə qəbul edir. Təəssüf ki, bizim ölkəmizdə bu cür təcrübə vüsət almayıb. Ona görə də təhsilin bu sektorunu inkişaf etdirmək, ona olan marağı daha da artırmaq, mövcud problemləri nizamlamaq, əhalinin sosial tərkibindən asılı olmayaraq hər bir təbəqəyə maddi cəhətdən əlçatan etmək üçün təşkilati və stimullaşdırıcı tədbirlərin həyata keçirilməsinə böyük ehtiyac var.

Digər tərəfdən, özəl orta təhsil müəssisələrinə öz işlərini daha səmərəli qurmaqda və inamlı təsir bağışlamaqda onlara dövlət dəstəyinin də böyük təsiri ola bilər. Bu, çox vacib şərtlərdən biridir. Bütün bu qeyd etdiyim xüsusiyyətlər maddi vəziyyəti yaxşı olan şəxslərin özəl məktəblərə marağını artırıb.

Əlbəttə ki, özəl məktəbin açılması dövlətin yükünü azaldır ki, bu yaxşı haldır. Amma özəl məktəbləri məmurlar açmamalıdır. Bu, rəqabət mühitinə ciddi zərbə vurur. Əgər özəl təhsil biznesinə başlayan məmur təhsil sistemindən gəlibsə, bu yaxşı haldır. Ən azı o təhsili bilir, çatışmazlıqları aradan qaldırmaqda maraqlı olacaq.

Amma yaxşı olar ki, dövlət maraqları biznes maraqlarına qurban verilməsin. Təəssüf ki, özəl məktəb yaradanlar keyfiyyətli təhsil verməyi yox, daha çox gəlir götürməyi düşünürlər. Əgər o şəxslər məmur olan vaxtı keyfiyyətli təhsil xidməti göstərməyiblərsə, təhsil sahəsində uğurlu adam olmayıblarsa, onlar özəl məktəb mühitinə ancaq biznes marağı üçün gələcəklər. Bu gün ölkədə keyfiyyətli təhsil müəssisələrinə ciddi şəkildə ehtiyac var. Bu zaman əhalinin aztəminatlı kateqoriyasını da nəzərə almaq lazımdır. Təəssüflər olsun ki, özəl məktəblərin təhsil haqları çox yüksəkdir və reallığı əks etdirmir. Digər tərəfdən, özəl məktəbləri yaradanlar ancaq öz qohum-tanışlarını ora cəlb etməməlidir. Çünki bu zaman qeyri-peşəkar idarəetmə müəssisənin fəaliyyətini təhlükəyə sala bilər.

Ümumiyyətlə, məmurların təhsil biznesində fəaliyyətinə onlar dövlət sektorundan uzaqlaşdıqdan sonra icazə verilməlidir. Bu zaman onlar vəzifə səlahiyyətlərindən sui-istifadə etməzlər".

**❑ Afaq MİRAYİQ, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 138 (8511) 7 avqust 2024

# Hökumətin onlayn iş rejimi qərarı - media nə edəcək?

**Rəşad Məcid:** "Medianın koronavirus pandemiyasından sonra onlayn işləmək təcrübəsi var"
**Ələsgər Süleymanlı:** "Tədbirin işıqlandırılması üçün biz tam gücümüzlə işləyəcəyik"

**COP29-la əlaqədar dövlət orqanlarında (qurumlarında) iş rejimi dəyişəcək. Bununla bağlı dövlət qurumlarına Nazirlər Kabineti müvafiq tapşırıq verib. Dövlət qurumlarına (orqanlarına) Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının Bakı şəhərində keçirilməsi ilə əlaqədar tədbirin əhəmiyyətini, iştirakçıların sayını və yüksək səviyyədə təşkil edilməsi məqsədilə Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonu üzrə aşağıdakıların təmin olunması tapşırılıb:**

- dövlət orqanlarında (qurumlarında) işə cəlb edilən işçilərin sayının ən çoxu 30 faizə müəyyən edilməsi, işçilərin qalan 70 faizinin məsafədən (evdən) işləmələrinin təmin edilməsi (COP29-la bağlı tədbirdə iştirak edən və təşkilati işlərə cəlb edilən əməkdaşlar istisna olmaqla);
- dövlət orqanlarında (qurumlarında) əməkdaşların qrafiki müəyyən edilməklə növbəlilik qaydasında işə cəlb edilməsi;
- dövlət orqanlarında (qurumlarında) iş rejiminin (saatlarının) bu məktubun uyğun olaraq tətbiqi təmin edilməsi.





Yada salaq ki, Nazirlər Kabinetinin qərarı ilə ölkəmizdə fəaliyyət göstərən orta məktəblərdə (xüsusi təhsil müəssisələri istisna olmaqla) payız tətilinin vaxtı dəyişib. Sözügedən qərarla ümumi təhsil pilləsi üzrə 2024-cü il noyabrın 12-dən 22-dək payız tətili olacaq.

Noyabrın 9-10-nu və 23-24-ü şənbə və bazar günlərinə təsadüf edir. Həmçinin 8 Noyabr Zəfər Günü və 9 Noyabr Dövlət Bayrağı Günü qeyri-iş günləridir. 9 noyabr şənbə gününə düşdüyü üçün 11 noyabr da qeyri-iş günü olacaq. Beləliklə, orta məktəblərdə tətil ümumilikdə 8 noyabrda başlayacaq və tam 17 gün - 25 noyabra qədər davam edəcək. Noyabrın 25-i dərs günü olacaq. Noyabrda həftəsonlarını da hesablasaq, cəmi 10 gün dərs olacaq.

Qeyd edək ki, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası, yəni COP29 bu il Azərbaycanda keçiriləcək. Bununla bağlı qərar COP28-in ötən il dekabrın 11-də Dubayda keçirilmiş plenar iclasında qəbul olunub. Azərbaycan indiyədək bir çox beynəlxalq tədbirlərə ev sahibliyi edib və onların öhdəsindən layiqincə gəlib. Lakin Prezident İlham Əliyevin də dediyi kimi, COP29 bu vaxta qədər keçirilmiş tədbirlərlə müqayisəyə gəlmir. İki həftə Bakı dünyanın mərkəzi olacaq və şəhər təqribən 70-80 min xarici qonağı qarşılayacaq. COP29 konfransına ev sahibliyi Azərbaycan üçün 2024-cü ilin ən mühüm hadisəsi və ölkənin yaşıl iqtisadiyyata keçid strategiyasının məntiqi davamı kimi qiymətləndirilir. Bu missiyaya uyğun olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2024-cü il Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib.

Bəs media işini necə tənzimləyəcək?

**Mətbuat Şurasının sədri Rəşad Məcid mövzu ilə bağlı "Yeni Müsavat"a fikirlərini bölüşüb:** "Burada dövlət qurumlarının hansı formada işləyəcəyi barədə yazılıb. Medianın da koronavirus pandemiyasından sonra onlayn işləmək təcrübəsi var, hər halda, müəyyən dərəcədə vəziyyət nəzərə alına bilər. Bu sanballı tədbirin əhəmiyyətini nəzərə alıb jurnalistlərin onlayn işləməsi mümkündür və məqbul sayılır".

**"Yeni Müsavat" Media Qrupunun baş direktoru Ələsgər Süleymanov hesab edir ki, kütləvi informasiya vasitələri (KİV) spesifik fəaliyyət sahəsidir və dövlət qurumu olmadığına görə bu qərar onların fəaliyyətinə aid deyil:** "Əksinə, həmin müddətdə mühüm tədbir səbəbindən KİV gücləndirilmiş iş rejimində fəaliyyət göstərməlidir. Çünki bu tədbirin işıqlandırılması, məlumatların ictimaiyyətə doğru-dürüst çatdırılması üçün media iş başında olmalıdır. Biz də tam gücümüzlə işləyəcəyik. Belə bir önəmli tədbir əgər ölkəmizdə keçirilirsə, KİV bunu hərtərəfli işıqlandırmalıdır. Bunun üçün də tətil etmək yox, işləmək lazımdır".

**"Bakı-Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev də "Yeni Müsavat"a fikrini bildirib:** ""Bakı-Xəbər" adi günlərdəki qaydada işini davam etdirəcək. Dövlət qurumları media üçün fövqəladə yenilik tətbiq etsə, baxarıq".

❑ **Afaq MİRAYİQ,**
**"Yeni Müsavat"**

# Rayonlarda günü iki min manata hotel qiymətləri

## Kənd evləri daha ucuz başa gəlir - Lerikdə 5 nəfər üçün günlük kirayə ev 60-120 manatdır



**Artıq yayın bitməsinə bir neçə həftə qalıb. İstirahət üçün rayonlara yollanan vətəndaşlar imkanlarından asılı olaraq, hotel, kottec və ya günlük evlər tuturlar.**

Bakupost.az avqust ayı üçün rayonlarda hotel qiymətləri ilə bağlı araşdırma aparıb.

Məlum olub ki, hər il olduğu kimi bu il də qiymətlər "od tutub yanır". Hətta bu gün 5 manat ucuz olan hotel sabah 5 manat daha baha ola bilər. Qubada yerləşən məşhur "Quba Palace" hotelində qiymətlər 2 nəfər üçün 455 manatdan başlayır. Buraya səhər-axşam qidalanma, SPA xidmətləri daxildir. Daha lüks şəkildə dincəlmək istəyənlər üçün isə qiymətlər 2120 manata qədər qalxır. Təbii ki, bunlar 8 nəfərlik, həyətində hovuzu olan villalardır. Hotel avqustun 31-dək yalnız Azərbaycan vətəndaşlarına özəl, "Azərbaycanım" kampaniyası ilə 10% endirim təqdim edir. Araşdırmamız zamanı o da aydın oldu ki, bu hoteldə əvvəlki qiymətlər 170-240 manat arasında dəyişib.

"Mountain Breeze" hotelində 2 nəfərlik kottec 120, 4 nəfərlik isə 200 manatdır.

"Macara Lake Park" hotelində 1 gecəlik ekonom otaqlar 140 manatdır. Qiymətə səhər yeməyi, SPA xidmətləri, qapalı hovuz daxildir. Ümumiyyətlə, 2 nəfərlik otaq qiymətləri 230 manata kimi dəyişir. Hoteldə 120 manata taxta, 220 manata isə daş kotteclər var. Qeyd olunan məbləğlər həftəiçi qiymətlərdir. Həftəsonu isə 20 manat daha yüksək olur.



"Cənnət bağı"nda 2 nəfərlik standart otağın qiyməti 90 manatdır.

Şamaxıda "Shamakhi Palace"da səhər yeməyi daxil 270 manat, səhər-axşam yeməyi 320 manat, 3 dəfə qidalanma isə 380 manatdır. Əvvəllər isə qiymət 200 manat olub.

Şamaxıdakı "Göyqurşağı" hotelində qiymətlər həftəiçi 90, həftəsonu 100 manatdır. Kotteclərində isə qiymətlər 100-120 manat arasında dəyişir.

"Sakit göl" hotelində də qiymətlər həftəiçi və həftəsonuna görə dəyişir. Əgər həftəiçi gedirsinizsə, 1 günü 195 manat, həftəsonu isə 215 manatdır. Buraya ancaq səhər yeməyi daxildir. Hoteldə kotteclər də var, qiymətləri eynidir. 4 nəfərlik kottec 305 manata təklif edilir. Əvvəllərki qiymətlər 170-210 manata olub.

"Qalaaltı" hotelində əsas binada 2 dəfə qidalanma 280, 3 dəfə qidalanma 320 manatdır.

Şabranda "Shabran Wellbeing" hotelində 2 nəfər üçün qiymət 155 manat, kottecdə isə 190 manatdır. Lakin qiymətlər günə, adam sayına görə dəyişir. Lüks otaqların qiyməti isə 410 manatdır. Buraya səhər yeməyi və masajsız SPA daxildir.

Qəbələdə "Qafqaz Riverside" hotelində 1 gecə qalmağın qiyməti 384 manatdır. Buraya səhər-axşam yeməyi daxildir. Əvvəllər isə qiymət 173 manat olub.

Qəbələdə "Qafqaz Tufandağ" hotelində qiymət 400 manatdır və buraya tək səhər yeməyi daxildir.

"Gabala garden" hotelində 2 nəfərlik 263 manat, "Nohurgöldə" isə gecələmək 180-430 manata qədərdir.

Şəkidə "Marxal" hotelində isə qiymətlər otağın eyvanlı-eyvansız olmağına görə dəyişir: 170-190 manat. Əvvəlki illərdə isə qiymətlər isə 150-170 manat olub.

"Sheki Park" hotelində 2 nəfər üçün qiymət 150 manatdır. Buraya səhər yeməyi daxildir.

Lənkəranda "Lankaran Springs Vellnes Resort"da həftəiçi 2 nəfərlik tək səhər yeməyi ilə 220 manat, 2 dəfə qidalanma 280, 3 dəfə qidalanma 320 manat olacaq. Həftəsonu qiymətlər 240-300-340 manatdır. Bu oteldə də SPA qiymətə daxildir. Masaj xidməti isə ödənişlidir. Daha əvvəlki illərdə isə qiymət 1 gecə üçün 175 manat olub.

Lənkəranda "Riva Hill" hoteldə 2 nəfərlik nömrənin qiyməti 159 manatdır.

Qaxda "Bergs Hotel & Restaurant" hotelində 1 gecə qalmaq 109 manatdır. Buraya səhər yeməyi daxildir.

"Hilltop Heaven" hotelində isə 2 nəfərlik nömrə səhər yeməyi daxil 115 manatdır.

Astarada dəniz sahilində "Terras" hotelində qiymətlər daha münasibdir. 4 nəfərlik 70 manat. Bura yemək daxil deyil.

İsmayıllıda "Basqal Resort & Spa" hotelində qiymətlər 170 manatdan başlayır. Burada cümə və şənbə günləri istisna olmaqla, 1-15 avqust tarixlərində kampaniya elan edilib. Belə ki, standart tipli otaqlar 170 manat, superior tipli otaqlar 190 manat, deluxe suite tipli otaqlar 240 manat, family suite tipli otaqlar 380 manat, kotteclər isə 480 manatadır. Eyni zamanda hovuzlu kotteclər də var ki, burada 1 günlük gecələmək 640 manatdır. Həmçinin bütün SPA xidmətlərinə 10% endirim tətbiq olunacaq.

"Şəki yaylası" hotelində isə səhər yeməyi daxil 2 nəfər 120 manat, 3 nəfər 130 manat ödəməlidir.

Əlavə edək ki, qiymətlərin baha olması səbəbindən insanlar daha çox günlük evlərə üstünlük verirlər. Bu cür kənd evləri daha ucuz başa gəlir. Məsələn, Lerikdə 5 nəfər üçün günlük kirayə ev 60-120 manatdır.

❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 138 (8511) 7 avqust 2024



**Keçmiş Milli Təhlükəsizlik Nazirliyinin (MTN-in) generalı, uzun illər nazirliyin Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinə rəhbərlik etmiş Akif Çovdarov 4 il öncə həbsdən buraxılandan dərhal sonra həyat yoldaşı ilə rəsmi şəkildə boşanıb.**

# General Çovdarov həbsdən çıxan kimi arvadını niyə boşayıb?



## İbadət Çovdarova iddia edir ki, müsadirə edilən əmlakları əri yox, özü və yaxın qohumları alıb, məhkəmələr isə...

Ardından da məhkəməyə artıq keçmiş arvadından - İbadət Çovdarovadan müsadirə edilən əmlakların bir hissəsinin geri qaytarılması ilə bağlı ərizə daxil olub.

"Yeni Müsavat" xəbər verir ki, bu məlumatı "AzadlıqRadiosu" yayıb.

Həmin məlumata görə, İbadət Çovdarova müsadirə olunmuş əmlaklardan Abşeron rayonunun Masazır kəndində hektarlarla torpaq sahəsinin və həmin ərazilərdəki tikililərin ona məxsus olduğunu bildirir. Masazırdakı "Duz gölü"nün yaxınlığında yerləşən həmin torpaq sahəsində pomidor yetişdirilirmiş. Bu təsərrüfata anbarlar, ofis təyinatlı inzibati bina, başqa köməkçi tikililər və 3 istixana daxildir.

Qadının geri qaytarılmasını tələb etdiyi daha bir əmlak isə Kürdəmir rayonundakı 69 hektar ərazidə olan göllər, balıqçılıq təsərrüfatı və tikililərdir.

İ.Çovdarova iddia edir ki, bu əmlaklar keçmiş MTN generalı ilə birgə yaşayış dövründə əldə olunsa da, onun özünün və qohumlarının pulu ilə alınıb. O üzdən, A.Çovdarovun barəsindəki cinayət işi ilə əlaqədar müsadirə edilə bilməz.

Məhkəmədəki mənbənin verdiyi məlumata görə, İ.Çovdarova bu əmlakları geri almaq uğrunda gedən və üç ili aşan mübarizəsini indi də davam etdirir: **"İbadət Çovdarova bir sıra əmlak üzərində özünün tam pay hüququnun tanınmasını istəyir. Akif Çovdarov da bu iddiaya etiraz etmir, əksinə, müdafiə edir".**

Sabiq MTN generalının adından çıxış edən nümayəndəsi deyir ki, sözügedən torpaq sahələri və müəssisələr onların birgə vəsaiti hesabına əldə olunmayıb. Onları İbadət Çovdarovanın özü və yaxın qohumları alıb.

Məhkəmələr bu iddiaları əsaslı və inandırıcı saymadığından təmin etmir.

Uzun illər MTN-in Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin rəisi olmuş A.Çovdarovun həbsindən sonra onun özünə və yaxınlarına məxsus 30 milyon manatdan artıq dəyərdə əmlakın üzərinə həbs qoyulmuşdu.

Bakı Hərbi Məhkəməsində hökm çıxarılarkən, Çovdarovun 12 illik həbsinə, əmlakların böyük əksəriyyətinin isə müsadirəsinə qərar verilmişdi.

Əmlaklarla bağlı qərardan Çovdarovun özü ilə yanaşı, həyat yoldaşı, övladları da daxil, bir çox qohumları da yuxarı instansiya məhkəməsinə şikayət vermişdi.

Onların şikayəti əsasında müsadirə qərarı ləğv edilib, əmlaklar geri qaytarılsa da, bu dəfə prokurorluq həmin qərardan narazı qalmışdı. Bu üzdən, əmlakların müsadirəsinə dair məsələyə dəfələrlə apelyasiya instansiyasında və Ali Məhkəmədə baxılmış, nəhayət, 9 il sonra - 2024-cü ilin aprelində nöqtə qoyulmuşdu.

Aprelin 17-də Ali Məhkəmə A.Çovdarovun özü və yaxınlarına aid əmlakların müsadirəsi barədə yekun qərarını verib.

❑ **"Yeni Müsavat"**

# Artan qadın cinayətləri

## Belə cinayətlər daha çox Bakıda və Bakıətrafı kəndlərdə baş verir

**Son vaxtlar mətbuatda tez-tez qadınların qətlə yetirilməsi ilə bağlı xəbərlər oxuyuruq. Belə ki, bir neçə gün öncə "Abşeron Gənclər Şəhərciyi"ndə ər həyat yoldaşını binadan ataraq həyatına son qoydu. Avqustun 5-də isə Bərdədə qadın qaynı tərəfindən qətlə yetirildi. Elə gün yoxdur ki, səhərimizi bu cür informasiyalarla açmayaq. İldən-ilə qadın cinayətləri ilə bağlı daha çox məlumatlar yayılır. Belə olan halda qadınlarımızı necə qoruyaq?**



**"Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin rəhbəri Mehriban Zeynalova** "Yeni Müsavat"a açıqlamasında deyib ki, qətllərin baş verməsinin ilkin səbəblərindən biri zorakılıqla bağlı müraciətlərin daxil olmamasıdır: "Qadınlara ailəsi tərəfindən psixoloji təzyiq göstərilir. Onlar inandırılır ki, hara getsələr hər yerdə ittiham olunacaqlar. Ona görə də qızlar zorakılıqla bağlı hər hansısa informasiyanı vermək gücündə olmur.

Münaqişəli ailələrlə bağlı davamlı işlər görülməlidir. Sahə müvəkkillərinin və icra hakimiyyətinin mütəmadi monitorinqlərinə ehtiyac var. Sosial dəstək faktorlarının olmaması bəzi hallarda münasibətləri gərginləşdirir və tərəflər arasında münasibətlərin tənzimlənməsinə imkan vermir.

Regionlarda pulsuz hüquqi yardıma böyük ehtiyac var. Bu xidmətin olmaması şəxslərin vaxtında müraciət etməməsi ilə nəticələnir.

Daxili İşlər Nazirliyi ailə münasibətləri ilə bağlı hər hansı məlumat gələn kimi dərhal reaksiya verir. Ancaq onun davamlılığını təkcə Daxili İşlər Nazirliyi və sahə müvəkkili yox, icra hakimiyyətləri və yerli bələdiyyələr də aparmalıdır. Xidmətin əl çatanlığının olmaması qətllə nəticələnir. Ailələrlə sosial işin təşkili mütləq olmalıdır. Sosial-psixoloji iş aparılmalıdır. Azərbaycanda bununla bağlı hələlik xidmətlər paketi tam formalaşmayıb. Hesab edirəm ki, əksər qadın cinayətlərinin kökündə vaxtında müraciətin olmaması və davamlı, dayanıqlı xidmətin göstərilməməsi dayanır.

Bir məsələni də nəzərinizə çatdırım ki, münaqişəli ailə ilə zorakılığın mövcud olduğu ailəni ayırd etmək lazımdır. Bunlar başqa-başqa şeylərdir. Münaqişəli ailələrdə tərəflər müəyyən aralıqlarla bir-birləri ilə dava edirlər.

Zorakılıqların olduğu ailələrdə isə şiddət zəncirvari formada davam edir. Buna görə də dövlət qurumları bu ailələrə fərqli sistemlə yanaşmalıdır".

**M.Zeynalova deyir ki, qadın cinayətləri ən çox Bakıda və Bakıətrafı kəndlərdə baş verir:** "Rayonlarda oturuşmuş ailə modeli var. Orada xanımlar fikirləşir ki, ailə modeli bu cür olmalıdır. Zorakılıq faktları varsa, ailə münasibətlərinin ənənəsi kimi qəbul edilir. Ona görə də regionlardan o qədər də məlumat ala bilmirik. Mətbuata məlumat az çıxır. Yalnız ölüm hadisəsi olanda biz xəbər tuturuq. Ancaq sevindirici hallar da var. Artıq rayonlarımızdan 102 qaynar xəttinə zorakılıqla bağlı zəng edən xanımlara rast gəlinir".

**Sabiq polis rəisi, ekspert-kriminalist Mahmud Hacıyev deyir ki, insan olan yerdə qətllərin baş verməsi qaçılmazdır:** "Bu, insan faktorudur. Qadın və ya kişinin qətlə yetirilməsinin fərqi yoxdur. 5-10 il bundan əvvəl öz ərini güllə ilə vuran və ya bıçaqla xəsarət yetirən qadınlar olurdu. Amma doğrudur, qadınlar daha çox aqressivliyin qurbanı olurlar. Hər bir cinayətin özünün motivi var. Bəs niyə qadınlara qarşı aqressiya var? Texnologiya inkişaf etdi, əl telefonları, "votsap" yarandı. Bunların hamısı cinayətin baş verməsinə təsir edən amillərdir. Bunu jurnalistlər də, hüquqşünaslar da bilməlidir. Texnologiyanın inkişafı cinayətlərin artımına təsir edir. Bir də görürsən ki, qardaş bacısını bıçaqladı. Niyə bıçaqladı? Məlum olub ki, qız "votsap"da kiminləsə yazışırmış. Və ya qadına gizli nömrədən zəng gəlir. Əsəb kəllə-çarxa qalxır və ər həyat yoldaşını öldürür. Sonuncu cinayətləri təhlil etsəniz, görərsiniz ki, müəyyən qədər texnologiya təsir edir. Keçmişdə kimsə ərəb ölkələrinə şəklini göndərmirdi ki, şeyx görüb onu bəyənsin və biletini alıb Dubaya aparsın. Bu, texnologiyanın təsiridir.

Bir məqamı da nəzərinizə çatdırım ki, Azərbaycanda məktəblərdə təhsil aşağı səviyyədədir. Biz təhsilsiz və qətlə meylli aqressiv gənclər yetişdiririk. Məktəbdən sonra maarifləndirməni televiziyalar aparmalıdır. Təəssüf ki, bizim yerli kanallar fahişəliyi, tərbiyəsizliyi təbliğ edir".

❑ **Şəhanə RƏHİMLİ,**
**"Yeni Müsavat"**

Yeni MÜSAVAT
N 138 (8511) 7 avqust 2024

# Bir tükdən daha kiçik detal dünyanı bir-birinə vurur

## ABŞ və Çinin amansız mübarizəsi necə bitəcək?

**Müasir texnologiyaların inkişafı mikrosxemlərin - çiplərin istehsalı sahəsindəki proseslərdən birbaşa asılıdır. Bir çox mənbələr hazırda ABŞ və Çin arasında gedən ticarət müharibəsinin əsasında çip istehsalına nəzarət imkanının dayandığını deyirlər. Elə buna görə də dünyada çipləri ikinci neft adlandırırlar. Çünki əvvələ, neft kimi, çiplər də iqtisadi artıma təkan verir: onlar bütün müasir elektronikanın istehsalının əsasını təşkil edir və çiplər nə qədər məhsuldar olarsa, bir o qədər əhəmiyyətli texnoloji tərəqqiyə imkan verir.**

İkincisi, yarımkeçiricilər xammal kimi güclü təsir vasitəsidir. Müasir çip istehsalının yaradılması bəşəriyyətə məlum olan ən mürəkkəb texnoloji prosesdir. Onu başqalarından daha yaxşı mənimsəyənlər nəinki rəqabətdə iqtisadi üstünlük əldə edirlər, həm də öz siyasi iradələrini diktə edə bilirlər. Məsələn, Hollandiyanın ən qabaqcıl çip istehsalı avadanlığı istehsalçısı olan ASML, Çin istehsalı "ələ keçirməyə" qərar verərsə, TSMC fabriklərində işləyən maşınlarını uzaqdan bağlamağa hazır olduğunu açıqlayıb.

ABŞ, Çin və Avropa hökumətləri özlərini bu cür risklərdən qorumaq üçün müstəqil sənaye yaratmağa və yarımkeçiricilərin tədarük zəncirinə nəzarət etməyə çalışırlar. Bu, çip istehsalçıları üçün təşviq siyasətinə gətirib çıxarır və sənayeyə yüz milyardlarla dollarla ölçülən nəhəng investisiyaları cəlb edir.

Qlobal Yarımkeçiricilər Sənayesi Assosiasiyasının məlumatına görə, əsas istehsalçılar 2024-cü ildən 2032-ci ilə qədər çip sənayesinə 2,3 trilyon dollar kapital qoyuluşunu planlaşdırırlar. Daha 380 milyard isə dünyanın əsas imkanlarının cəmləşdiyi ölkələrin hökumətləri tərəfindən xərclənəcək. ABŞ, Asiya və Avropa onlarla yeni yarımkeçirici fabriki tikmək istəyir. Və hətta yenilikdən ehtiyatlı olan Uorren Baffet çip istehsalçılarına böyük məbləğdə sərmayə qoyur.

May ayında ABŞ-da dövlətin yarımkeçirici şirkətlərinə 29 milyard dollar qrant və 25 milyard dollar kredit verəcəyi açıqlandı. Ən böyük qrant və kreditlər "İntel"ə - 19,5 milyard dollar, "Micron" - 13,6 milyard dollar, TSMC - 11,6 milyard dollar və "Samsung" - 6,4 milyard dollar olacaq.

Növbəti səkkiz il ərzində ABŞ, Asiya və Avropada onlarla yarımkeçirici fabriki tikiləcək. ABŞ yeni müəssisələrin işə salınmasında ən fəal olmağı planlaşdırır: proqnozlara görə, 2032-ci ilə qədər onun çip istehsal gücü 203 faiz artacaq və bu, digər ölkələrlə müqayisədə ən yüksək artım tempidir. Müqayisə üçün Cənubi Koreyada istehsal gücü 129 faiz, Tayvanda 97 faiz, Çində 86 faiz artacaq.



Nəticədə, qlobal yarımkeçiricilər bazarında ABŞ-ın payı 2032-ci ilə qədər indiki 10 faizdən 14 faizə qədər arta bilər. Eyni zamanda amerikalılar 10 nm və ya daha az texnoloji prosesdən istifadə edərək ən qabaqcıl çiplərin istehsalına diqqət yetirməyi planlaşdırırlar. Əgər 2022-ci ilin sonunda ABŞ-ın bu seqmentdə payı sıfıra bərabər idisə, 2032-ci ilə qədər ölkə Tayvan və Cənubi Koreyanı sıxışdıraraq bazarın 28 faizini tutmaq niyyətindədir.

Yarımkeçirici şirkətlərin yaxın 20 il ərzində ABŞ-da yeni layihələrə ən azı 348 milyard dollar sərmayə qoyacağı gözlənilir. "İntel" Arizona və Ohayo ştatlarında dörd fabrikə 40 milyard dollar xərcləyəcək. TSMC təxminən eyni məbləğdə sərmayə qoymaq istəyir - həm də Arizonada. "Samsung" isə Texasda yeni istehsala 17 milyard dollar sərmayə qoymaq niyyətindədir.

Digər ölkələr də istehsalın inkişafını stimullaşdırır. Almaniyada hökumət yarımkeçirici fabriklərin tikintisinə 30 milyard avro sərmayə qoymağı "İntel"lə razılaşdırıb. Eyni zamanda hakimiyyət bu məbləğin üçdə birini ayırmağa söz verir. TSMC də Almaniya hökumətinin əhəmiyyətli dəstəyinə arxalanaraq Drezdendə 10 milyard avro dəyərində çip istehsalı zavodu qurmaq istəyir. Bu məbləğin yarısı dövlət tərəfindən dotasiya olunur.

Yaponiyada yarımkeçirici istehsalını stimullaşdırmaq üçün 2024-cü ilin aprelindən vergi güzəştləri sistemi tətbiq edilir. Korporativ vergi üzrə güzəştlər onun həcminin 40 faizinə çata bilər. TSMC Yaponiyanın cənubunda ölkəyə ümumi sərmayəsi 20 milyard dolları keçən ikinci çip zavodu tikməyi planlaşdırır.

Lakin Çin növbəti beş il ərzində istehsalın inkişafına ən böyük sərmayəni - 1 trilyon yuan və ya 143 milyard dollar yatırmağı planlaşdırır. Qəbul edilmiş proqrama əsasən, yarımkeçirici şirkətlər yarımkeçiricilərin istehsalı üçün avadanlıq və materialların öz istehsalının inkişafına yönəlmiş vergi güzəştləri və subsidiyalar alacaqlar.

Sənayenin böyüməsinə siyasi fikir ayrılıqları və ticarət məhdudiyyətləri də təkan verir. Texnoloji müstəqilliyə nail olmaq və qlobal bazar payını artırmağa cəhd edən əsas iqtisadiyyatlar yarımkeçiricilərə sərmayə qoyur və bu sahədə biznesi hər cür stimullaşdırır. Məsələn, yaxın bir neçə ildə Çin dövləti mikroçiplərə sərmayələrə 142 milyard dollar, ABŞ isə ümumilikdə 75 milyard dollar xərcləməyi planlaşdırır.

Müasir yarımkeçirici sənayesi bahalı, əmək tutumlu və yüksək texnologiyalı sənayedir. Atom səviyyəsində materiallarla işləyən avadanlıq on milyonlarla dollara başa gəlir. Müasir zavodların tikintisi isə çoxmilyardlıq investisiyalar tələb edir. Çox az şirkət bu cür xərcləri ödəyə bilər və lazımi texnoloji səriştələrə malikdir.

Sadə dillə desək, yarımkeçiricilər sənayesindəki texnoloji tərəqqi çip ölçüsünün daimi azalması və məhsuldarlığın artması ilə nəticələnir. Çipin vahid sahəsinə nə qədər çox tranzistor yerləşdirilə bilərsə, müqayisə olunan enerji istehlakı ilə onun hesablama gücü bir o qədər yüksəkdir. Texnoloji proses nanometrlərlə ölçülür. Bu günün ən qabaqcıllarından biri olan yeddi nanometrlik istehsal prosesindən istifadə etməklə 1,5 milyona qədər tranzistor insan saçının bir hissəsinə bərabər olan çipə yerləşdirilə bilər.

Çiplər nə qədər təkmilləşsə, istehsalı bir o qədər bahalı olur. Bu əvvəlcədən müəyyən edilmiş bazar konsentrasiyasıdır. Əgər 2000-ci illərin əvvəllərində ən qabaqcıl mikrosxemlər iki onlarla şirkət tərəfindən istehsal olunurdusa, bu gün onlardan yalnız üçü var: Tayvan TSMC, Cənubi Koreya Samsung və Amerika Intel.

Qlobal sənayenin coğrafiyası da əhəmiyyətli dərəcədə dəyişib. 30 il əvvəl əsas yarımkeçirici qurğular ABŞ, Avropa və Yaponiyada cəmləşmişdi. 2022-ci ilin sonunda isə çip istehsalının demək olar ki, 60 faizi Çin, Tayvan və Cənubi Koreyada baş verib. 1990-cı ildən ABŞ-ın payı 37 faizdən 10 faizə, Avropanın payı isə 44 faizdən 8 faizə düşüb.

İndi ən qabaqcıl çiplərin istehsalında şəksiz lider Tayvandır. Adanın payına 10 nm-dən az bir proses texnologiyasından istifadə edən çiplərin dünya istehsalının 69 faizi düşür. Eyni zamanda belə çiplər dünyada istehsal olunan əksər avadanlıqlar üçün lazım deyil - onlar qlobal satışın yalnız 2 faizini təşkil edir. Amma elə sistemlər var ki, onlar əvəzedilməzdir, məsələn, güclü prosessorların tələb olunduğu süni intellektdə.

2023-cü ildə TSMC-nin gəlirinin 11 faizi süni intellekt üçün prosessorların istehsalında dünya lideri olan "Nvidia"nın sifarişlərindən əldə edilib. Apple isə uzun illərdir ki, ən böyük müştəridir: Tayvan çip istehsalçısının bütün satışlarının dörddə birini bu şirkət təşkil edir. iPhone və MacBook istehsalçısı özünün flaqman istehlakçı elektronikası modellərində ən yüksək performanslı çiplərdən istifadə edir.

TSMC son on ildə yarımkeçiricilər bazarında əvəzolunmaz oyunçuya çevrilib. Şirkət istehsalı dayandırarsa, dünya hesablama gücünün 40 faizini itirəcək, fərdi kompüter prosessorlarının istehsalı 30 faiz azalacaq, 5G şəbəkələrinin yerləşdirilməsi demək olar ki, tamamilə dayandırılacaq.

TSMC və digər çip istehsalçıları yarımkeçirici sənayesini təşkil edən piramidanın yalnız ən üstüdür. Ümumiyyətlə, o, çox parçalanmışdır: dünyada hazır çipin bütün komponentlərini istehsal edən bir şirkət yoxdur.

**Sənaye altı əsas seqmentdən ibarətdir:**

**Materiallar** - yarımkeçiricilərin istehsalı üçün materialların istehsalı. Burada dünya lideri təxminən 60 faiz bazar payı ilə Yaponiyadır. Ən çox istifadə olunan materiallar silikon, germanium və qallium arseniddir. Eyni zamanda yarımkeçiricilər üçün nadir torpaq metallarının hasilatı və emalının 60 faizi Çində cəmləşib.

**Avadanlıq** - avadanlıq dünyanın ən mürəkkəb və bahalı avadanlıqlarından biridir. Bu seqmentdə ABŞ, Yaponiya və Avropa liderlik edir. Çip istehsalı üçün maşın istehsal edən ən məşhur və ən böyük şirkət Hollandiyanın ASML şirkətidir.

**Fables** - dizayn və inkişaf. Burada ABŞ 60 faiz bazar payı ilə liderlik edir. Şirkətlər hazır texnologiyaların istehsalçılara ötürülməsi ilə tədqiqata diqqət yetirirlər.

**OSAT** - yarımkeçiricilərin yığılması və sınaqdan keçirilməsi. Bu istiqamətdə Çin və Tayvan bazarın 80 faizini təşkil edir. Müxtəlif çip və ya avadanlıq istehsalçıları OSAT şirkətlərinə fərdi komponentlər üçün sifarişlər təqdim edirlər. Bu, yarımkeçirici sənayenin ən aşağı qiymətli və ən sadə seqmentidir.

**IDM** - inteqral sxemlərin inkişafı, istehsalı və satışı. Bu seqmentdə liderlər ABŞ və Cənubi Koreyadır, ən böyük şirkətlər isə "İntel" və "Samsung"dur.

**İstehsal zavodu** - sifarişlə hazır yarımkeçiricilərin istehsalı. Tayvan 60 faizdən çox payla birinci yerdədir. Döküm şirkətləri, bir qayda olaraq, öz inkişafı ilə məşğul olmurlar, lakin üçüncü tərəf müştəriləri üçün istehsal imkanlarını təmin edirlər. Seqmentin ən böyük nümayəndəsi TSMC-dir.

Qlobal yarımkeçiricilər bazarında əsas tendensiya onun deqloballaşmasıdır. Rəqabət edən ölkələr xarici tədarükdən asılı olmamaq üçün öz istehsal zəncirlərini yaratmağa çalışırlar. Və bu, texnologiyanın inkişafına və potensialın genişləndirilməsinə böyük investisiyalar tələb edir.

Hazırda çip istehsalının Çin və Tayvanda cəmləşməsi Qərb siyasi liderlərini narahat edir. Amerikalıların əsas ticarət sanksiyaları məhz Çinin qabaqcıl yarımkeçirici istehsal texnologiyalarına çıxışını məhdudlaşdırmağa yönəlib: 2019-cu ildə Çinin "Huawei" şirkəti ABŞ hökuməti tərəfindən qara siyahıya salındı: amerikalılar və onların müttəfiqləri şirkətdən avadanlıq alıb ona məişət elektronikası və şəbəkə avadanlığının istehsalı üçün material və komponentlər sata bilməzlər. 2020-ci ildə Çinin ən böyük çip istehsalçısı SMIC bu siyahıya daxil edilib. 2022-ci ildə ABŞ Çinin texnologiyaya çıxışını daha da məhdudlaşdırmaq üçün əlavə olaraq ixrac nəzarətini tətbiq etdi.

Bu məhdudiyyətlər hələlik gözlənilən nəticəni vermir. Bu baxımdan, orta və uzunmüddətli dövrdə ABŞ-Çin münasibətlərində çip amilinin rolunun getdikcə artması gözlənilir.

❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 138 (8511) 7 avqust 2024



# Payızda kirayə evlər bahalaşacaq - səbəblər

## Universitetlərin əksəriyyəti tələbələri hələ də yataqxana ilə təmin edə bilmir

**Avqust ayının ortalarından başlayaraq tələbələrin təhsil aldıqları şəhərlərdə kirayə ev axtarışı başlayır. Ali təhsil müəssisələrinin əksəriyyətinin Bakıda yerləşdiyini nəzərə alsaq, əvvəlki illərdə olduğu kimi, bu il də paytaxta tələbə axını gözlənilir.**

Bundan əlavə, 11-22 noyabr tarixlərində keçiriləcək COP29-la bağlı ölkəmizə turist axını da gözlənilir. Onların bir hissəsinin də məhz kirayə evlərdə qalacaqları gözlənilir. Ekspertlərə görə, sentyabrın əvvəllərindən başlayaraq evlərin qiymətlərində 50-100 manat civarında artımlar olacaq. Hazırda köhnə tikililərdə birotaqlı evlərin kirayə qiyməti 300, ikiotaqlıların 400, üçotaqlıların isə minimum 500 manatdan başlayır, əşyalı olan evlərin isə qiyməti digərlərindən 50-100 manat daha bahadır. COP29 zamanı isə hotellər bu qədər turisti qəbul edə bilməyəcəklərinə görə kirayə evlərə ehtiyac yaranacaq. Bu da günlük kirayəyə verilən evlərin qiymətlərinə təsir göstərəcək.

**İqtisadçı ekspert Eyyub Kərimli** mövzu ilə bağlı "Yeni Müsavat"a danışıb. Ekspert qeyd edib ki, ölkədə universitetlərin böyük əksəriyyəti Bakıda yerləşdiyindən hər il yay aylarında tələbələrin paytaxta kütləvi axını olur ki, bu da əsasən kirayə qiymətlərinin artmasına təsir edir: "Bu tendensiya hər il davam edir və hər dəfə 20 faiz artım müşahidə olunur. Nəzərə alsaq ki, bu il tələbə qəbulunda 10 minə yaxın tələbə artımı var, bu da o deməkdir ki, sentyabrda daha çox tələbə Bakıya gələcək və kirayə qiymətlərinin daha da artmasına səbəb olacaq. O ki qaldı COP29-un kirayə qiymətlərinin artmasına təsir etməsinə, hesab edirəm ki, bu daha çox yeni və bahalı binalarda olan mənzillərin qiymətinə təsir edəcək. Üstəlik, COP29 tədbiri qısa müddətlik olacaq, bu baxımdan əhəmiyyətli dərəcədə təsir göstərməyəcək. Söhbət əsasən orta qiymətli mənzillərdən gedir".

**Ekspert tələbələrin yataqxana problemindən də söz açıb:** "Çox təəssüf ki, bu gün universitetlərdə yataqxanaların vəziyyəti ürəkaçan deyil. Həmçinin universitetlərin əksəriyyəti tələbələri yataqxana ilə təmin edə bilmir. Hesab edirəm ki, "Böyük Qayıdış" proqramı həyata keçirildikdən sonra ölkəmizdə yataqxanalarda məskunlaşmış köçkünlərimiz öz doğma yurdlarına geri dönəcək və bu məsələ də öz həllini tapa biləcək".

**Eyyub Kərimli onu da qeyd edib ki, bəzi ev sahibləri bu dönəmdə vəziyyətdən sui-istifadə edərək, əsassız şəkildə evlərin qiymətini qaldırırlar.** "Bu gün Bakı şəhərində böyük tikinti-quruculuq işləri gedir, köhnə mənzillərin çoxu sökülür və bu da kirayə mənzillərin qiymətinə təsir edir. Belə ki, evləri sökülən vətəndaşlar da çox zaman kirayə qalmalı olur və bu da ümumilikdə kirayə mənzil bazarında öz təsirlərini göstərir", - deyə ekspert qeyd edib.

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

# QMİ səlahiyyətlərini niyə və necə itirdi?

## Azərbaycan din xadimlərinin təyinatını dövlət qurumu tərəfindən həyata keçirən yeganə ölkə deyil...

**Son bir neçə ildə ölkənin məscidlərinə və digər dini ziyarətgahlarına Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi axund təyin edir. Bəzi ekspertlər hesab edirlər ki, bu vəziyyət Azərbaycan Konstitusiyasında "din dövlətdən ayrıdır" müddəası ilə ziddiyyət təşkil edir.**



Azərbaycan Konstitusiyasının 18-ci maddəsinə əsasən, din dövlətdən ayrıdır. Lakin dövlət orqanı hesab edilən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi məscidlərdə və digər dini ibadət yerlərində axundları təyin edir. Beş ildən bir onları attestasiyadan keçirir, əmək haqqı verir.

Bütün bunlar ona dəlalət edir ki, artıq din dövlətdən ayrı deyil və növbəti referendumda bu müddəanı əsas qanundan çıxartmağın vaxtı çatıb. Qeyd edək ki, gələn ilin yanvar və ya fevral ayında referendum keçiriləcəyi haqda da iddialar var. Bəs dinşünas ekspertlər bu barədə nə düşünürlər?

**Araşdırmaçı jurnalist, dini sahə üzrə mütəxəssis Rəsul Mirhəşimli mövzu ilə bağlı "Yeni Müsavat"a deyib ki, dinin dövlətdən ayrı olması onun dövlət siyasətinə müdaxiləsinin yolverilməzliyini nəzərdə tutur:** "Həmçinin dövlətin də insanların inanclarına qarışmaması, inanan və inanmayan vətəndaşlara eyni şəkildə davranması dünyəvilik modelinin əsas prinsiplərindən biridir. Dünyəvi dövlət rəsmi dini olmayan və qanunları müəyyən bir dinə uyğun formalaşmayan dövlətdir. Dünyəvi dövlətlər hər hansı dinə etiqad edib-etməməsindən asılı olmayaraq bütün vətəndaşlara bərabər yanaşır və belə dövlətlərdə insanlar dini inancından asılı olmayaraq eyni məhkəmələrdə, eyni qanunlar əsasında mühakimə olunurlar. Dünyəviliyi model seçən dövlətlərdə dini qurumların siyasətə qarışması qadağandır. Dünyəvi dövlət quruluşunun üstünlük təşkil etdiyi ölkələrdə din və vicdan azadlığı mövcuddur və buna görə də hər kəsin etiqad etdiyi dinin tələblərini yerinə yetirmək, inanmayanların isə həmin tələbləri yerinə yetirməmək azadlığı var.

"Dini etiqad azadlığı haqqında" Qanuna əlavə və dəyişikliklər edilmədən öncə din xadimlərinin təyinatını Qafqaz Müsəlmanları İdarəsi həyata keçirirdi. Prosedur normalar gərəyi Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təqdimatı əsasında məscidlərə imam və axundlar təyin edilirdi. Qanuna dəyişiklikdən sonra axund və imamların təyinatı ilə bağlı bütün səlahiyyətlər Dövlət Komitəsinə verildi. Göründüyü kimi, təqdimat verilərkən də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəyi əsas götürülürdü. Yeni komitənin təyinat məsələsinə müdaxiləsi yeni deyil, bu dövlət qurumu yaranandan bəri mövcud olub.

Tarixən dünyəviləşmə prosesi, adətən dini etiqad azadlığının verilməsini, dövlət dinlərinin ləğvini, dövlət vəsaitlərinin din üçün istifadəsinin dayandırılmasını, hüquq sisteminin dini nəzarətdən azad edilməsini, dini dəyişən və ya ondan çəkinən vətəndaşlara dözümlü olmağı özündə ehtiva edir.

Bizdə dinin dövlətdən ayrı olması ruhanilərin seçkilərdə namizəd olaraq iştirakına qadağanın olması və s. ilə özünü göstərir.

Hər halda, din xadimlərinin təyinatı məsələsində Azərbaycan bu işi dövlət qurumu tərəfindən həyata keçirən yeganə ölkə deyil. Türkiyə Cümhuriyyətində bu iş Diyanət İşləri Komitəsi vasitəsilə tənzimlənir, qardaş ölkədə də bu vəzifə dövlət qurumuna həvalə edilib".

**Dini sahə üzrə mütəxəssis Kənan Rövşənoğlu da mövzu ilə bağlı "Yeni Müsavat"a fikirlərini bildirib. O qeyd edib ki, bu proses son 10 ildə başlayıb:** "Daha əvvəl Azərbaycanda dövlət tərəfindən dini fəaliyyətlər, o cümlədən din xadimlərinin təyinatı, maliyyələşməsi, dini təbliğ və sair fəaliyyətlər Qafqaz Müsəlmanları İdarəsinə verilmişdi. Çünki konstitusiyaya görə, din dövlətdən ayrı olduğu üçün dini fəaliyyətlər formal olaraq qeyri-dövlət qurumu olan QMİ-yə verilmişdi. DQİDK ancaq icmalara və dini fəaliyyətə nəzarət edirdi. Ancaq sonradan həm regionda baş verənlər, həm də din sahəsində vəziyyətin dəyişməsi, müsəlman ölkələri ilə yaxınlaşma dövlətin din sahəsinə diqqətini artırmağa, beləliklə də tədricən dini fəaliyyətləri öz əlində cəmləməyə başladı. Əvvəlcə multikulturalizm müşavirliyi yaradıldı, bir müddət müşavirlik və dini komitə dini fəaliyyətləri tədricən əlinə almağa çalışdı. Son 7 ildə isə səlahiyyətlər, ümumiyyətlə, DQİDK-ya tapşırıldı. DQİDK yanında əvvəlcə Mənəvi Dəyərlərin Təbliği Fondu yaradıldı, ardınca İlahiyyat İnstitutu. Bununla da həm dini təbliğ, həm də təhsil QMİ-dən alınaraq Dini Komitəyə verildi. Daha sonra məscidlərə imam təyinatı qanunla Dini Komitəyə həvalə olundu. Bu, hesab edirəm ki, konstitusiyaya və dünyəvi dövlət prinsiplərinə ziddir. Digər tərəfdən, dövlətin dini işlərə həddən artıq müdaxiləsi bir qayda olaraq əks-effekt verir və dindarlıq, dini fəaliyyət rəsmi, yəni dövlət nəzarətindəki dindarlıqla qeyri-rəsmi dindarlığa bölünür. Dövlət dini fəaliyyətlərə o həddə nəzarət etməlidir ki, orada qanunlar və milli təhlükəsizlik üçün təhdidlər yaranmasın. Bununla bağlı isə müvafiq dövlət qurumları onsuz da mövcuddur və fəaliyyətini həyata keçirir. Qalan məsələlərdə isə dini fəaliyyətlər müstəqil olmalıdır. Çünki dövlət nəzdində olduqda dini fəaliyyətlər formal, inzibati işə çevrilir. Dinin dövlətdən ayrı olması müddəasının konstitusiyadan çıxarılması hesab edirəm ki, mümkün deyil, çünki bu 100 illik Azərbaycan dövlət ənənəsinə ziddir, üstəlik, bu dinin siyasiləşməsinin dövlət tərəfindən leqallaşmasıdır ki, rəsmi olaraq ölkəmiz hər zaman buna qarşı çıxış edib. O səbəbdən də az ehtimal edirəm ki, bu bənd konstitusiyadan çıxarılsın".

❑ **Afaq MİRAYİQ,**
**"Yeni Müsavat"**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**

# Milli kinomuz əvvəlki şöhrətini bərpa edə biləcəkmi?

## Vaxtilə iki mindən çox işçisi olan kinostudiyada bu gün cəmi 40 adam qalıb...

**Hər il olduğu kimi, bu il də avqustun 2-si Azərbaycan Kinosu Günü kimi qeyd olundu. Xatırladaq ki, mərhum prezident Heydər Əliyevin 2000-ci il 18 dekabr tarixli Sərəncamı ilə avqustun 2-si kino işçilərinin peşə bayramı - Azərbaycan Kinosu Günü kimi qeyd olunur.**



Fransada keçirilmiş ilk kinoseansdan iki il sonra - 1898-ci il avqustun 2-də Bakı elmi-foto dərnəyinin katibi, naşir və fotoqraf Aleksandr Mişon özünün lentə aldığı "Bibiheybətdə neft fontanı yanğını", "Əlahəzrət Buxara əmirinin yolasalma mərasimi", "Qafqaz rəqsi" xronikal sənədli və "İlişdin" adlı bədii süjetlərini nümayiş etdirmişdi. Həmin gün milli kinonun yaranma günü hesab olunur.

Ötən əsrin əvvəllərində "Pate", "Pirone", "Filma" kimi xarici kino şirkətləri Bakıda filiallarını açaraq film istehsalı ilə məşğul olublar. 1916-cı ildə yazıçı İbrahim bəy Musabəyovun eyniadlı povesti əsasında "Neft və milyonlar səltənətində", 1917-ci ildə isə Üzeyir Hacıbəylinin eyniadlı operettası əsasında "Arşın mal alan" qısametrajlı bədii filmləri çəkilib.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə hökumət bir çox mədəni-siyasi islahatlar keçirib. Xarici aləmlə diplomatik, mədəni-iqtisadi əlaqələr dünya kinosunun ilk nümunələrinin Bakıya gətirilməsinə və ictimai baxışlara təkan verib. Bunun nəticəsində Bakıda kinematoqrafiya həvəskarlarının sayı artmağa başlayıb. 1918-ci ildə onlar "Kinematoqrafiya və teatr qulluqçuları şurası"nda birləşiblər.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra 1923-cü ildə Azərbaycan Foto-Kino İdarəsi (AFKİ) yaradılıb və həmin il aprelin 28-də Birinci Dövlət Kinofabriki açılıb. Burada çəkilən ilk film xalq əfsanəsinin motivləri əsasında yaradılmış "Qız qalası" bədii filmi olub.

1923-1926-cı illərdə kinostudiya Birinci Dövlət Kinofabriki, sonradan AFKİ Kinofabriki ilə birləşdirilərək "Azdövlətkino", "Azərkino", "Azərfilm", "Azdövlətkinosənaye", "Bakı kinostudiyası", "Azərbaycanfilm" adlandırılıb. 1960-cı ildən Cəfər Cabbarlının adını daşıyır.

"Azərbaycanfilm"də indiyədək iki mindən çox müxtəlif növ və janrda film istehsal olunub. Onların bir hissəsi, o cümlədən "Arşın mal alan", "Şərikli çörək", "Ad günü", "Sevinc buxtası", "İstintaq", "Yaramaz" və başqaları dövlət mükafatlarına, bir çox filmlər, o cümlədən "Ögey ana", "Uzaq sahillərdə", "Arşın mal alan", "Bizim Cəbiş müəllim", "Axırıncı aşırım", "Nəsimi", "Özgə vaxt", "Sarı gəlin", "Ovsunçu", "Buta", "Çölçü", "Nabat", "Axınla aşağı" və digərləri beynəlxalq və digər kinofestivalların mükafatlarına layiq görülüb.

1980-ci illərin sonunda ölkənin ictimai-siyasi həyatında baş verən çaxnaşma və təlatümlər, keçid dövrü kino istehsalatından da təsirsiz ötüşmədi. Nəticədə kinostudiyada geriləmə, istehsalatın seyrəlməsi müşahidə edilməyə başlandı. Məlumata görə, sovet hakimiyyətinin dağıldığı ərəfələrdə kinostudiyanın köhnə pulla 4,5 milyard manat borcu olub. Bu borclar aradan götürüldükdən sonra 1993-1996-cı illərdə istehsala buraxılan və sonradan illərlə yarımçıq qanlan "Yuxu", "Güllələnmə təxirə salınır", "Hacı Qara", "Ovsunçu" bədii filmləri çəkilib ekranlara çıxmağa başlayıb. Ardınca "Qətl günü", "Haray", "Fəryad", "Yaddaş", "Dolu", "Qanlı Yanvar", "Mən evə qayıdıram", "Əlvida, cənub şəhəri", "Biz qayıdacağıq", "Hökmdarın taleyi", "Seçilən", "Cavad xan" kimi bədii filmlər çəkildi.

Bununla belə, artıq 30 ildir ki, milli kinomuzda bir durğunluq yaşanır. Bunu təkcə tamaşaçılar deyil, elə tanınmış kinematoqrafların öz dilindən eşidirik.

**Əməkdar artist, "Dəli Kür"ün Mələyi Zemfira Sadıqova bununla bağlı bu yaxınlarda verdiyi müsahibədə deyib:** "Azərbaycan kinosu rəhmətə gedib, heç başsağlığı verən də yoxdur. Film yoxdur, çəkmirlər. Niyə kinostudiya yoxdur? Elə vaxtları var idi ki, ora qaynayırdı. Bir-birinin ardınca cürbəcür filmlər çəkilir, dublyajlar edilirdi. Amma indi gedib kinostudiyaya baxsanız, görəcəksiniz ki, xarabalıqdır, iş yoxdur. Film çəkən yoxdur. O qədər istedadlı insanlar var ki, kinostudiyanı Hollivud səviyyəsinə gətirə bilərlər. Ona da çoxlu pul və kömək lazımdır. Elə bir kişi olmalıdır ki, yatmış ölünü İsa peyğəmbər kimi diriltsin".

Bəs səbəb nədir? Milli kinomuz nə zaman əvvəlki simasını bərpa edə biləcək?

Bəzilərinə görə, problemin əsas səbəbi maliyyə, vəsait çatışmazlığı, digərləri peşəkar kadrların azlığı, bir qisim isə "Azərbaycanfilm" kinostudiyasının bərbad vəziyyətə düşməsi ilə əlaqələndirir. Xatırladaq ki, bugünlərdə kinostudiyanın rəhbərliyi və digər işçiləri istefa ərizəsi yazaraq, işdən çıxmışdılar. Bunun əsl səbəbi qeyri-müəyyən qalsa da, hələ də müzakirə mövzusu olmaqda davam edir.

**Bu arada qeyd edək ki, Xalq artisti, tanınmış kinorejissor və aktyor Şeyx Əbdül Mahmudov "Yeni Müsavat"a açıqlamasında bildirib ki, hazırda kinostudiyanın cəmi 40 işçisi qalıb. Bundan başqa, kommunal xərclərini ödəyə bilmədiyindən kinostudiyanın tez-tez suyu, işığı kəsilir:** "Vaxtilə 2 mindən çox işçisi olan kinostudiyada bu gün cəmi 40 adam qalıb. Hazırda studiyanın rəhbəri bizim öz kadrımız, Moskvada təhsil almış Azər müəllimdir. Onunla görüşdüm, mənə dedi ki, cəmi 40 işçisi var, onların da arasında 2 nəfər xanım analıq məzuniyyətdədir, digər iki nəfər də xəstədir. Kinostudiyanın işıq və su pulunu da ödəyə bilmirlər, gəlib tez-tez kəsirlər, onlar da qaranlıqda, susuz qalırlar. Yəni hazırda kinostudiyada vəziyyət bu cür acınacaqlıdır".

**Şeyx Əbdülün fikrincə, milli kinoya məhz dövlət səviyyəsində yüksək qayğı göstərilərsə, öz əvvəlki simasına geri dönə biləcək:** "Gün o gün olsun ki, milli kinomuz əvvəlki simasına geri dönsün, bərpa olunsun, həmin günü də bayram kimi qeyd edək. Bəli, bu gün milli kinomuz elə bir vəziyyətdədir ki, biz onu yalnız dövlət səviyyəsində xilas edə bilərik. Aşağı səviyyədə biz yalnız onun müzakirəsini aparıb, təkliflər verə bilərik. Yəni kinomuzun yenidən dirilməsi üçün yüksək səviyyədə dövlət qayğısı lazımdır".

**Azərbaycan Respublìkasının Medìanın İnkìşafı Agentlìyìnìn malìyyəsì əsasında nəşr olunur. Yazını hazırladı: Xalìdə GƏRAY**

# Türkiyədə İnstagramın bağlanması barədə ilginc açıqlama

**"Son illərdə qlobal sosial media resursları (Facebook, İnstagram, YouTube və s.) xeyli siyasiləşib, ikili standartlar artıb. Bir çox hallarda bu resurslar vasitəsilə sərbəst fikir bildirməkdə problemlər yaranır".**



Musavat.com xəbər verir ki, bu sözləri **Azərbaycan İnternet Forumunun Prezidenti Osman Gündüz** deyib.

Ekspert qeyd edib ki, bu məsələdə əsas səbəb məhz bu resursların özləri tərəfindən uzun illər oturuşan və hamını qane edən prinsipin, "məzmuna istifadəçi cavabdehdir" prinsipinin pozulması olub:

"Yəni qlobal resurslar məzmuna, ifadə azadlığına ikili standartlarla müdaxiləyə başladığı andan bu tip qapanmalar, kontentin silinməsi, "kontent saxta ola bilər" kimi işarələnməsi və s. reallığa çevrilib. Məhz bu səbəbdən sosial resursların hüdudsuz hakimiyyət əldə etməsindən dolayı 5 il öncə Tramp bu resurslarla bağlı ciddi bir tənzimləmə hazırlamışdı.

Prinsip ondan ibarət idi ki, əgər qlobal resurs kontenti redaktə edirsə, bu, artıq ifadə azadlığının pozulmasıdır, demək, o özü senzordur və kontentə görə özü məsuliyyət daşımalıdır. Yəni indiyədək mövcud olan "kontentə istifadəçi cavabdehdir" prinsipi pozulursa, onda qlobal resurslar da tənzimlənməyə cəlb olunmalıdır.

Tramp o zaman bunu reallaşdıra bilmədi. İndi həmin məsələ Türkiyədə baş verib. "Meta" şirkəti İranda qətlə yetirilən HƏMAS lideri İsmayıl Haniyə ilə bağlı Türkiyədəki paylaşımları İnstagramdan silib. Yəni qlobal resurs yenə kontentə müdaxilə edib, yenə "redaktorluq" edib. Amma "Meta" Türkiyənin terrorçu hesab etdikləri ilə bağlı çoxsaylı paylaşımları İnstagramdan silməyib. Bu baxımdan İnstagramın qapadılması ilə bağlı Türkiyə hökumətinin, prezident Ərdoğanın mövqeyi anlaşılandır. Amma dövlət maraqlarının reallaşması istiqamətində Türkiyənin atdığı addımlar, "baltanın kökündən vurulması" sərt olub.

İnstagram Türkiyədə ən populyar, ən çox ictimai və biznes əhəmiyyəti olan sosial platformadır. Türkiyədə milyonlarla insanın burada böyük biznesi var, milyonlarla insan burada işləyir. Türkiyə İnstagramı sadə bir şey deyil, milyonların "oturduğu" biznes və ictimai bir platformadır. İctimai fikrin formalaşmasına təsir edən bir platformadır. Yəni Türkiyə cəmiyyəti üçün bu platforma yetərincə əhəmiyyətli bir resursdur. Əlbəttə, "Meta" da Türkiyənin rəqəmsal bazarından milyonlar qazanır. Bu baxımdan problemin əvvəllər olduğu kimi, xəbərdarlıqlar, danışıqlar, müvəqqəti məhdudlaşmalarla, "Meta" ilə əməkdaşlıqla həll etmək doğru yanaşma olardı. Türkiyənin özünün də bu sahədə təcrübəsi var.

Ümid edirəm, qısa zamanda problem öz həllini tapacaq və İnstagram Türkiyədə fəaliyyətini bərpa edəcək".

Xatırladaq ki, bir neçə gün öncə Türkiyədə İnstagram bağlanıb.

Türkiyənin İnformasiya Texnologiyaları və Rabitə Qurumu (BTK) tərəfindən İnstagramın bloklanmasının səbəbi barədə bildirilib ki, radikal qərar "kataloq cinayətlər" kimi müəyyən edilən qaydalara uyğun olmadığı üçün verilib. Səlahiyyətlilər qadağanın nə vaxt ləğv ediləcəyinin İnstagramın mövqeyindən asılı olduğunu bildiriblər. Bunun nə qədər davam edəcəyi barədə hələ açıqlama verilməyib.

Qeyd edək ki, "kataloq cinayətlər" - uşağa qarşı cinsi istismar, intihara təhrik etmə, Atatürkə təhqir kimi məzmunların çıxarılmasında çətinliyi ehtiva edir.

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
Son səhifə
N 138 (8511) 7 avqust 2024
Avqust

# Depressiyadan ucuz və keyfiyyətli qurtulmağın yolu



**Sağlam qidalanma və fiziki aktivlik depressiya ilə mübarizədə psixoterapiyadan daha effektiv ola bilər. Beynəlxalq tədqiqatçılar qrupu bu barədə "The Conversation" jurnalında dərc olunan məqalədə xəbər verib. Bildirilib ki, alimlər tədqiqat zamanı depressiyadan əziyyət çəkən könüllüləri iki qrupa ayırıblar. Bir qrup psixoloqa, digər qrup isə diyetoloq və məşqçiyə göndərilib. Təəccüblü olsa da, ikinci qrupun nəticələri daha yaxşı olub: səkkiz həftə ərzində iştirakçıların 42%-də depressiya simptomları yumşalıb. Psixoloqla işləyən qrupda isə bu göstərici 37% təşkil edib.**

Nəticələr göstərir ki, qidalanmanın dəyişdirilməsi və fiziki aktivliyin artırılması depressiyanın ilk mərhələsinin müalicəsində psixoterapiya qədər effektivdir. Həmçinin maliyyə cəhətdən diyetoloq və məşqçi xidmətləri psixoterapiyadan daha əlçatan ola bilər.

# Ofis masaları unitazdan da çirklidir



**Gündəlik istifadə etdiyimiz əşyalar içində ən çirklisi mobil telefon və ofis masasıdır. Britaniya klininq agentliyi ofislərdə müxtəlif səthlərdən mikroflora nümunələri götürüblər: masadan, klaviaturadan, oturacaqdan, telefondan. Sonra onlar ən çirkli, mikroblu əşyalarla müqayisə edilib.**

Kompüter klaviaturasında mətbəxdəki zibil qabında olan qədər bakteriya, kompüter siçanında, ofis masasında unitaz qapağından da 3 dəfə çox mikrob aşkarlanıb.

İş ondadır ki, ofis masası və klaviatura qarşısında insan 6-8 saat vaxt keçirir, orada yeyir, içir və bu masa və əşyalar gündəlik yaxşı təmizlənmir.

Ofis işçiləri gündə 2 dəfə öz masalarını xüsusi məhlulla dezinfeksiya etməli, əllərini də 3 saatdan bir yumalı, həmin masada yemək yeməməli, özlərini potensial infeksiyalardan qorumalıdır.



## 40 yaşdan sonra bunları etmək təhlükəlidir

**Mütəxəssislər 40 yaşdan sonra məşq zamanı buraxılan səhvləri açıqlayıb. Əzələ məşqləri sümükləri və oynaqları gücləndirməyə kömək edir, həmçinin əzələ kütləsini qoruyur. Lakin 40 yaşdan sonra bunları etmək təhlükəlidir.**

Mütəxəssislər səhvlər arasında yoqa kimi elastiklik və hərəkətlilik üzrə dərslərin adlarını qeyd ediblər. Onların sözlərinə görə, müalicə olunmamış zədələr, xroniki oynaq xəstəlikləri, hipermobilite və irəliləmiş osteoxondroz olan insanlar əzələ məşqləri edə bilməz.

## Balıq yağı bu qorxunc xəstəliyin qarşısını alır

**Balıq yağı (omeqa-3) demansiyanın qarşısını almağa kömək edə bilər. Alzheymer xəstəliyi və qocalıq ağılsızlığının inkişaf riskini azaltmağın bu yolunu rusiyalı endokrinoloq, tibb elmləri doktoru Zuhra Pavlova aşkar edib. O, balıq yağının koqnitiv pozğunluqların qarşısının alınması üçün faydalarının son araşdırmalarla sübut olunduğunu deyib.**

Pavlova bildirib ki, bir il balıq yağı qəbul edən insanlarda beyin hüceyrələrinin zədələnməsi kəskin azalıb. Eyni zamanda, endokrinoloq vurğulayıb ki, bütün yaşlı insanlar balıq yağı qəbul etməməlidir, çünki omeqa-3-ün çoxluğu zərər verə bilər.

## Alimlər yatmaq üçün ən uyğun saatı açıqladılar

**Yatmaq üçün ən uyğun vaxtda yuxuya getmək sağlamlığı qorumaq üçün vacibdir. Alimlərin fikrincə, yuxu üçün "qızıl saat" deyilən bir vaxt var. Avropa Kardiologiya Cəmiyyətinin nəşr etdiyi araşdırmaya görə, uzun illər sağlamlığı qorumaq üçün hər gün eyni vaxtda yatmaq lazımdır. Altı il ərzində 80 000-dən çox insanı müşahidə edən elm adamları 12:00-da və ya daha sonra yatağa gedənlərin sağlamlıq problemlərinin daha çox olduğunu aşkarlayıblar. Gecə həyat tərzini seçən insanlarda ürək-damar xəstəliklərinə 25% daha çox rast gəlinir. Eyni zamanda çox erkən yatmamalısınız. Axşam saat 22:00-dan əvvəl yatağa gedənlərdə ürək və damar problemləri riski 12% artır.**

Mütəxəssislər qeyd edirlər ki, yatmaq üçün ən yaxşı vaxt saat 22:00-23:00 arasıdır.



## Çində 1000 kilometr/saat sürətlə hərəkət edən qatar sınağı

**Çin Aerokosmik Elm və Sənaye Korporasiyası (CASIC) vakuum borusunda 1000 kilometr/saat sürətlə hərəkət edə bilən maqnit yastıqlı qatarı sınaqdan keçirib.**

Sınaqlar ölkənin şimalındakı Datonq şəhərində (Şansi əyaləti) baş tutub. Sübut olunub ki, sərnişin qatarı hərəkət zamanı sabit qalır və əyləci işə salarkən təhlükəsizdir. Qatarın bütün xüsusiyyətlərinin texniki şərtlərə uyğun olduğu bildirilir. Şansidə 2022-ci ilin aprelindən inşa edilən yeni nəqliyyat sisteminin gələcəkdə Çin meqapolislərini birləşdirəcəyi gözlənilir.

## 31 yaşında Nobel mükafatı alan alim vəfat etdi

**Çin əsilli amerikalı fizik, fizika üzrə Nobel mükafatı laureatı Li Çjendao 97 yaşında San-Fransiskoda vəfat edib.**

O, 1926-cı ildə Şanxayda anadan olub. 1946-cı ildə ABŞ-a köçən Çjendao Çikaqo Universitetində təhsil alıb. O, 1956-cı ildə 30 yaşında bu ali təhsil ocağının ən gənc professoru olub və bir il sonra Nobel mükafatına layiq görülüb. Çjendao tarixdə ikinci ən gənc mükafatçı olub.

# Bunları bilirsinizmi?

- Qiymətli daşların çoxu bir neçə elementin birləşməsindən meydana gəlir, yalnız brilyant tamamilə karbondan əmələ gəlir.
- Albert Eynşteyn 9 yaşından sonra tam danışmağa başlayıb. Buna görə də ailəsi onun əqli cəhətdən qüsurlu olduğunu düşünüb.
- "Santa Klaus"un paltarı əslində yaşıl rəngdədir. Ancaq bir kola markası onu qırmızı-ağ olaraq dünyaya tanıdıb.
- Qütb ayıları isti və nəmli mühitdə qaldıqları zaman kürklərinin rəngi yaşıl rəngə çevrilir.
- Alma, soğan və kartofun dadı eynidir. Yalnızca qoxuları fərqlidir. Əslində hamısı şirindir.
- Göytürklər turşuyan qatığın turşuluğunu azaltmaq üçün üzərinə su töküblər. Beləliklə, özləri də bilmədən ayranı kəşf ediblər.
- Dünyanın ən sürətli böyüyən bitkisi bambuk ağacıdır. Ağac gündə 90 santimetr uzanır.
- Dünyada ən çox satılan telefon "Nokia" markasının 2003-cü ildə satışa çıxardığı, 250 milyon ədəd satılan "Nokia 1100"dır.
- Soğan doğradığınız zaman gözünüzün yaşarmasını istəmirsinizsə, saqqız çeynəyin.
- İnsanın saçı üç kilo ağırlıq qaldıra biləcək gücdədir.
- Ölüm anında toxunma və görmə hissindən sonra eşitmə bacarığı itirilir. Ürək dayandıqdan sonra insan beyni 2 dəqiqə boyunca səsləri qəbul edə bilir.
- Yuxusuzluq şikayəti ilə həkimə müraciət edən insanların IQ səviyyəsinin normadan yüksək olduğu müşahidə edilir.
- İnsanlar yuxuladığı zaman qoxu ala bilmirlər.
- Niaqara şəlaləsindən düşüb sağ qalan ilk insan Bobbi Liç evdə portağal qabığına basaraq yıxılmış və daxili qanaxma səbəbilə dünyasını dəyişmişdir.
- Dəniz atı dünyanın ən sədaqətli canlısıdır. Çünki həyat yoldaşı öldükdən qısa bir müddət sonra o da ölür.
- İnsan ildə ən azı 1460 dəfə yuxu görür.
- "Karaoke" sözü yapon dilində "quru orkestr" sözünün qısaldılmışıdır. "Kara" yapon dilində boş deməkdir.
- Ördəyin səsi əks-səda vermir.
- Ən böyük quş yumurtası dəvəquşunundur. Yumurta 15-20 santimetr uzunluğunda və ortalama 1,7 kiloqram ağırlığındadır. Qaynadılaraq bişirilməsi isə 40 dəqiqə çəkir.
- Ən ağıllı heyvanlardan biri olan qarğalar insanlar kimi yaşlı valideynlərini illər sonra gedib ziyarət edirlər.

# İnsanabənzər robot Aya göndəriləcək



**Rusiya Elmlər Akademiyası (RAN) astronavtların yerinə insanabənzər robotun Aya göndərilməsi ideyasını müzakirə edir. Bu barədə akademiyanın Kosmik Tədqiqatlar İnstitutunun elmi direktoru, Ay proqramının birinci mərhələsinin elmi rəhbəri, akademik Lev Zeleni danışıb. "Əlbəttə ki, bu, uzaq perspektivdir, lakin biz indidən rusiyalı kosmonavtların uçuşu haqqında düşünməliyik. Kosmonavtların yerinə, insanabənzər bir robotun Aya göndərilməsi ideyası beləcə yarandı", - Zeleni deyib.**

Alimin sözlərinə görə, robotun əsas vəzifəsi Ayda müxtəlif nümunələr toplamaq olacaq. Enişdən sonra robot pilləkənlər vasitəsilə aparatdan çıxacaq və müxtəlif nümunələr toplayacaq. Akademik qeyd edib ki, gələcəkdə antropomorf robot Ayda yaşayacaq və lazımi məlumatları Yerə göndərəcək.

# İndoneziyada uçan taksi

**Cənubi Koreyanın "Hyundai Motor Corporation" şirkəti İndoneziyada uçan taksini uğurla sınaqdan keçirib.**

Taksi 50-80 metr hündürlükdə uça bilir və 200 kilometr/saat sürət yığır. Hava taksisində üç sərnişin və bir pilot səyahət edə bilər. Sınaqlar İndoneziyanın yeni paytaxtı Nusantara yaxınlığında yerləşən və tikintisi davam edən Samarinda hava limanında aparılıb. Qeyd olunub ki, Asiya ölkəsinin hakimiyyət orqanları 2030-cu ilə qədər uçan taksilər buraxmağı planlaşdırırlar.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazìm SABÌROĞLU
"Yenì Müsavat"ın kompüter mərkəzìndə yığılıb, səhìfələnìb, "Son dakìka" MMC-nin mətbəəsìndə çap edilib. Əlyazmalar gerì qaytarılmır. Müəllìflərlə redaksìyanın mövqeyì uyğun gəlməyə bìlər.

e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhərì, R.Rüstəmov küçəsì 2528-cì məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Lìsenzìya N: B 114
SAYI: 1.500